# HƏBİBİ DÜNYASI...

*Teymur HƏBİBİ*

**BAKI - 2010**

Az2
2010

T 63

**Teymur HƏBİBİ**
**HƏBİBİ DÜNYASI...**
Bakı - "MTR group" - 2010. - 160 səh.

Redaktoru və ön sözün müəllifi:
**Nahidə MUSAYEVA**

BBKA 63

**"HƏBİBİ DÜNYASI..."** müəllifin ilk kitabıdır. Burada müəllifin özünün dediyi kimi, ikinci dəfə ədəbiyyata gəldiyi dövrdən, indiki son dövrə qədər yazdığı şeirlərinin bəziləri salınmışdır. Kitab dörd fəsildən ***("Şeirlər", "Tarixsiz şeirlər", "Bayatılar", "Natamam sətirlər")*** ibarətdir. Kitabın adından bəlli olduğu kimi müəllifin öz dünyası var...

T 5204000080 - (355) / M - 656 - 2010 qrifli nəşr

©

group mtr
NƏŞRİYYAT VƏ POLİQRAFİYA İŞLƏRİ

# HƏYAT VƏ YARADICILIĞI

*Teymur HƏBİBİ (Teymur Bayramov Rzaqulu oğlu) 9 iyul 1986-cı ildə Gürcüstanda - Qarayazı mahalının Ağtəhlə kəndində ziyalı ailəsində anadan olub. Ailənin ikinci övladıdır.*

*1989-cu ildən ailə üzvləri ilə birlikdə Bakıda yaşayır. Valideyinləri onun haqqında belə deyir: "Hələ erkən yaşlarından ədəbiyyata sevgisi olan Teymur şeir, sənət ocağının qoynunda böyümüşdür. Ona bu istedad soykökündən, hələ məktəb illərindən müxtəlif mövzuda şeirlər yazan, ədəbiyyatı çox sevən anası Nisə xanımdan keçmişdir.*

*Teymur balaca olarkən vətənin müharibə illərində, o qızğın gedən döyüşlər zamanı televizorda göstərilən döyüşkən əsgərləri, ölüb-yaralanan, əsir düşən günahsız insanları, yandırılan şəhərləri, kəndləri əsəbi halda izləyərək içində düşmənə qarşı sonsuz nifrət bəsləyirdi. O, bu hadisələri uşaq düşüncələri ilə mühakimə edir, efirdən gördüklərini bədahətən şeir halında söyləyirdi. Əlinə aldığı hansısa bir qəzeti isə tərsinə tutaraq oxumağı, yazmağı bacarmadığı halda, "Cəmillini, Malıbəylini yandırdılar, əsgərlərimizi, analarımızı öldürdülər" və s. sözləri şeir kimi bir-birinə qoşaraq dayanmadan söyləyirdi. Biz onu saatlarla bu fikirlərin təsirindən ayılda bilmirdik. Yəni Teymur özündə olmurdu, başqa Teymur olurdu... Yaşı az olan balaca Teymurun bəlkə də, o an əlində silah, özü də səngərdə olsaydı düşmənə qan qusdurardı.*

*Müharibənin ağrı-acısını, dəhşətini xalqına çəkib göstərən jurnalist, vətənpərvər, öz ölümü ilə xalqın qəlbində əbədi qəhrəmanlıq abidəsini ucaldan Milli Qəhrəman Çingiz Mustafayev Teymurun ən sevimli bir kumiri idi. Onun Çingizə qarşı xüsusi bir sevgisi, marağı vardı. Daim onu, onun çəkdikləri bütün görüntüləri uşaq ağlı ilə izləyərək əsəb hissi keçirirdi. Teymurun həmişə bir sözü vardı: "Mən böyüyəndə Çingiz kimi vətənpərvər, çiynimdə kamera müharibəni çəkməyə gedəcəm. Vətənimi düşmənlərdən qoruyacam!"*

*Hələ məktəbə getməyən balaca Teymur uşaqlıqda taxtadan silahlar*

*düzəldərək həyatin o baş, bu başına gedib "Vətən məni yetişdirib, bu ellərə yolladı" əsgər marşını oxuyurdu. Çox qəribə idi ki, hündürdən, qışqıra-qışqıra oxuyurdu. Sanki içində bir yanğı vardı, nifrət vardı düşmənə, dünyaya, bəlkə də hər kəsə...*

*1992-ci il idi. Televizorda Xocalının işğalını, Çingizin ağlayaraq düşmənlərin törətdiyi dəhşətlərə dözmədiyi səhnələri, günahsız insanların amansızcasına öldürülməsi, bir sözlə, insanlığa yaraşmayan vəhşilikləri göstərirdilər.*

*Teymur isə yenə də həmişəki kimi televizorun qarşısında əyləşib göstərilənləri izləyirdi. Evdə isə xeyli qonaqlar vardı. Hamının başı söz-söhbətə qarışmışdı. Birdən Teymur əlində kağız ilə bizlərin diqqətini cəlb etdi. O, kağızda yazdığını bizlərə oxudu. Bizə isə çox maraqlı və qəribə gəldi ki, axı o hərifləri tanımır, yazı yaza bilmir? Çox keçmədi əlindəki kağıza baxanda gördük ki, kağızda dalğalar çəkilib. Teymurun özünə məxsus düşündüyü yazı. Yəni dalğalar... Sözün düzü, biz bu yazıdan heç nə anlamadıq. O, kağızdakı dalğalardan fərqli olaraq yazdığını oxuyanda sözləri düzgün şəkildə oxuyurdu. Hamı təəccüb içində idi. Heyif ki, o kağızların heç biri bu gün qalmayıb. Amma yaddaşlardan silinməzdir o anlar...*

*Biz isə elə onda bildik ki, balaca Teymurun istedadı nədir."*

*1993-cü ildə 143 saylı orta məktəbə daxil olmuşdu. 2004-cü ildə isə məktəbi bitirmişdir. O, məktəb ilə bağlı xatirələrindən yazır: "Mənim ikinci dəfə ədəbiyyata gəlişim məktəbdə onuncu sinifdə oxuyarkən, ikinci gün, ədəbiyyat dərsində olmuşdur. O gün sinif rəhbərimizin dərsi idi. O, keçdiyi dərs ilə bərabər, bizə şairlərin həyatında olan maraqlı hadisələrdən də danışırdı. Mənimlə bir parta arxasında sinif yoldaşım, dostum əyləşmişdir. O da müəllimənin danışdıqlarına diqqətlə qulaq asırdı. Bir sözlə, bütün sinifin diqqəti müəllimədə idi. Birdən gözüm sinif yoldaşımın, dostumun qarşısındakı dəftərdə yazılan sətirlərə sataşdı. Astadan soruşdum bu nədir? O isə dəftəri mənə tərəf uzadıb oxumağımı xahiş etdi. Elə hər şey də buradan başladı.*

*Biz məktəbdə üç dost idik. Çox keçmədi öz aramızda "Əhli-eşq"*

*məclisi yaradıb, bir-birimizə təxəllüslər verməyə başladıq. Mənə dostlarımdan biri "Həbibi" (sevgili dost, dost) təxəllüsü verdi. O gündən məni Teymur Həbibi kimi çağırmağa başladılar. Biz üç dost hər dəfə yeni şeir yazdıqca şeirləri bir-birimizə göstərərək, müzakirə edib oxuyurduq. Sonda da şeir haqqında öz fikrimizi bildirirdik. Sinif rəhbərimiz də yazdığımız şeirləri oxuyub bizimlə ürəkdən fəxr etdiyini bildirərək, dəyərli məsləhətlərini bizlərə verirdi. Sonradan bu məclisin üzvləri çoxalmağa başladı.*

*Mənim ikinci dəfə ədəbiyyata gəlişim məhəbbət şeirləri yazmaqla başlamışdır. Hamı mənə bir sual verirdi. Niyə məhəbbətdən yazırsan? Ən çox da bu sualı qızlar verirdi. Mən də cavabımda sevin məni, sizə də məhəbbətdən şeirlər yazım deyirdim. Bu sözümü kimisi ciddi, kimisi də zarafat qəbul edib, gülürdü...*

*Yavaş-yavaş məhəbbət şeirləri ilə yanaşı müxtəlif mövzuda şeirlər də yazmağa başladım.*

*Heç yadımdan çıxmaz. Bir gün sinifdə "Ana" haqqında inşa yazırdıq. Mən də anam haqqında "Pak adındır məni yaşadan, ana!" şeiri yazmışdım. Bu şeiri sinif rəhbərim oxuyub çox bəyənmişdi. Müəllimə bu şeiri inşaya salmağımı məsləhət bildi. Şeiri inşaya saldım. Böyük diqqətə, marağa səbəb oldu. Bir gün yenə ədəbiyyat dərsi idi. Müəllimə hamı ilə salamlaşıb oturdu. Sonra məni yanına çağırıb, ana haqqında yazdığım şeiri uşaqlar üçün oxumağımı xahiş etdi. Sözün düzü, heç hazır deyildim belə bir təklifə. Ürəyimdə "Anamın sağ əli başıma" - deyib, özümü bir təhər toparlayaraq şeiri uşaqlara söylədim. Müəllimə isə əlini qoynuna qoyub, gözləri yol çəkə-çəkə məni dinləyərək xəyala dalmışdır. Düzünü desəm şeirin harada başlayıb, harada qurtardığını bilmədim də. Bir də ayıldım ki, müəllimə ilə uşaqlar məni alqışlayaraq "eşq olsun mənim şagirdimə, bizim istedadlı sinif yoldaşımıza" - deyərək sevindilər. O an özümü dünyanın ən xoşbəxt insanı hiss etdim."*

*2004-cü ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Kulturologiya" fakültəsinin Beynəlxalq Mədəni Əlaqələr ix-*

*tisasının əyani şöbəsinə daxil olmuşdu. 2008-ci ildə universiteti fərqlənmə diplomu ilə bakalavr dərəcəsində bitirmişdir. O, universitet ilə bağlı xatirələrindən yazır: "I kursun qış semestri idi. İxtisas ilə bağlı fəndən imtahan verirdik. Tələbələr bir-bir imtahana girib-çıxdıqca növbə mənə yaxınlaşırdı. Mən isə həyəcanla dəhlizin o baş, bu başına gedib, əlimdə dəftər dərs vaxtı keçdiklərimizi təkrarlayırdım. Birdən mənə imtahan otağına keçməyi xəbər verdilər. Təzəcə içəri keçmişdim ki, müəllimə üzü gülərək "gəl, mənim şair balam. Buyur, əyləş" - deyə məni qabaqladı. Heç nə başa düşmədim. Salam verib, əyləşdim. Müəllimə isə "eşitdim məhəbbət şeirləri yazırsan? Onlardan birini söyləsən, dərs soruşmadan sənə 5 (beş) qiymət yazacam" - dedi. Siz haradan bilirsiz ki, mən məhəbbət şeirləri yazıram? Müəllimə gülərək "tələbə yoldaşların deyib. Utanma, oxu" - dedi. Gözlərimə inanmadım. Allahın adını ürəyimdə çəkib təzəcə şeirin bir bəndini deməyə başlamışdım ki, müəllimənin gözləri dolaraq "burda dayan, oğlum, sən məni keçmişə qaytardın, tələbəlik illərinə. Nəisə, Allah yolunu açıq etsin. Uğurlar, gedə bilərsən. İmtahandan keçdin. Təbrik edirəm!" - deyəndə yenə də gözlərimə inanmadım. Sevincək minnətdarlığımı bildirib otaqdan çıxdım.*

*Tələbə həyatı mənim üçün fərqli bir həyatdır. İnsanın böyüməsi, həyata baxışının dəyişməsi, yeni dostlar, tanışlar, ürəyinə yatan istəkli, səni sevən insanların qazanılması... Bunların hamısı, bu illər ərzində yaranır. Yaradıcılığımın ən qaynar və geniş oxucular tərəfindən tanınmasında da tələbəlik illərinə borcluyam."*

*Teymur Həbibinin mətbuatda ilk çap olunmuş şeirləri 2005-ci ildə "Müxəmməs" və "Namə" olmuşdur. O, 2006-cı ildə bir ilə yaxın mətbuatda çalışmış, "Qulluğunda hər an durum", "Xəyalımdan keçən gözəl", "Bir salamdır aramızdakı söhbət", "Xatirəli bir gecə...", "Səni axtarıram, yar, haradasan?" şeirləri də mətbuatda çap olunmuşdur.*

*Elə həmin ildə də "Ağla, mənim gözü yaşlı məhəbbətim" başlığı altında "İsmi-Teymur" (Avtobioqrafik şeir), "Kitabi-mehrim", "Biz ad günümüzü bir qeyd edirik", "Müxəmməs", "Gözəl", "Bu həyatdan*

*cavan köçdün, sevgilim", "Xəstəyəm, dərmanım yardır" və s. şeirləri də mətbuatda çap olunmuşdur. O, mətbuatda birinci korrektor vəzifəsində çalışmış, Heydər Əliyev "Xalqa bağışlanan ömür" X kitab, Hacı xanım Rövşanə "Əllərimi Allaha açdım", Şükufə Göyçəli "Səni ömrümə yazmışam", Zeynal Qoca "Zindandı dünya", Ramiz Məmmədzadə "İşıq günü", və s. kitablarda adı çıxmışdır.*

*Sonradan müxbir vəzifəsində çalışmış, İlyas Əfəndiyev - 92 "Unudulmaz xalq yazıçısı", "Kulturologiya" fakültəsi "ADMİU-nun öndə gedən fakültələrindən biri", Mikayıl Müşfiq "30 illik ömür karvanı", Bir olan Allahın izni ilə! "İslam inciləri", Poetik məclislər "Onların yaranma və inkişaf tarixi, poetik məclis üzvləri", Aşıq Ələsgər "Ustadın ömür səhifələri", Mirzə Şəfi Vazeh "XIX əsrin birinci yarısı Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri", Xaqani Şirvani "Öz dövrünün ustadı", Nizami Gəncəvi "Ustadın həyatı və yaradıcılığı", Mənisə Xatın Məhsəti Gəncəvi "XII əsr Azərbaycan ədəbiyyatında yeni bir şeir məktəbinin, şeir sərgisinin təsisçilərindən biri" və s. məqalələri də mətbuatda çap olunmuşdur. Bunlarla yanaşı, onun yeni yazdığı şeirləri də mətbuatda çap olunmuşdur. O, hələ tələbə olarkən universitetin Tələbə Həmkarlar İttifaqı Komitəsinin nəzdində fəaliyyət göstərən "Ədəbi Məclis"in üzvü olmuş və bu məclis üzvləri ilə bərabər 2007-ci ildə mətbuatda şeiri ("Darıxmışam") çap olunmuşdur.*

*2008-ci ildə hərbi xidmətə yola düşmüş və Qusar rayonunda xidmətdə olmuşdur. O, xidmətdə olduğu müddətdə "Ana", "Xəstəyəm, bu ürək darıxır sənsiz", "Küsəyən qız", "Ayrılıq", "Əsgər məktubu", "Şahdağ", "Şeir yazmaq istəyirəm", "Gülüşlərin" və s. şeirlər yazmışdır. O, hərbi ilə bağlı xatirələrindən yazır: "Mənim hərbi ilə bağlı olan xatirələrim hərbidə və hərbi hospitalda kitabçalarda yazılan şeirlərdə, qeyri-adi çəkilən şəkillərdə, darıxan zaman qaraladığım günlərdə və s. qeyd olunmuşdur."*

*Əsgər Bayramov xidmət etdiyi müddətdə özünü nizam-intizamlı aparmış, geyim formasını səliqəli saxlamış, döyüş və ictimai-siyasi*

*hazırlığı yüksək səviyyədə olmuş, öz əsgər yoldaşları ilə davranış qaydaları normal, silahının və döyüş texnikasının təyinatını yaxşı bilən, xidmətinə səhlənkar yanaşmayan, verilən əmr və tapşırıqları vaxtında yerinə yetirən, fiziki cəhətdən sağlam, mənəviyyatca saf, hərbi və dövlət sirlərini qoruyub saxlamağı bacaran bir əsgər olduğu üçün 2009-cu ildə "Xidməti xasiyyətnamə" ilə təltif olunmuş və hərbi xidmətini başa vuraraq Bakıya qayıtmışdır.*

*Musiqiyə böyük marağı olan Teymur bütün bunlarla yanaşı, məktəb və tələbəlik illərindən musiqi yaradıcılığı ilə də məşğul olurdu.*

# ÖN SÖZ

***Sevgidə gözüm kor, dilim lal olub.***
***Sevgidə qəlbim pak, yar xəyal olub.***

*24 yaşlı, istedadlı, yaradıcı gənc Teymur Həbibi ilə tanışlığım uzunmüddətli olmasa da, onun yaradıcılığı, yazdığı şeirlər məni bir ədəbiyyatçı kimi özünə cəlb etmişdir. Teymur Həbibi ilk dəfə deyəndə ki, "şeir yazıram", ona yazdığı şeirləri gətirib mənə göstərməyi və oxumağı təklif etmişdim. O isə qısa müddət ərzində bir neçə yazdığı şeirlərini gətirərək utana-utana, özünə arxayın olmayaraq, astadan ürəksizcəsinə mənə oxumuşdur. Sözün düzü, onun yazdığı şeirlər çox xoşuma gəlmişdir. Ən azından, yaşı az olan bu gəncin yazdıqları şeirlərdə böyük mənalar, düşündürücü sözlər, fikiraydınlığı məni bir ədəbiyyatçı kimi özünə bağlamışdır. Hələ qələminin çox şeirlər yazacağı bir dövrdə ona bu yolda düzgün istiqamət vermək mənim üçün fəxr və uğur sayılardı. Məsləhət gördüm ki, qələmi əlindən yerə qoymasın, yazsın. Heç kəsin sözünə baxmayaraq, heç bir çətinliklərdən qorxmayaraq... İllər keçdi, Teymur Həbibi vaxtaşırı yanıma gəldikcə əvvəlki, həm də yeni yazdığı şeirlərini özü ilə gətirərək sevincək halda mənə oxuyurdu. Mən də fəxrlə, maraqla onu dinləyirdim. Bu gediş hər dəfə, bəlkə də bir ayın hər günündə təkrarlanırdı. Bu o demək idi ki, istedadlı, yaradıcı bir insana düzgün yol göstərmək biz böyüklərin hər zaman borcudur. Çünki bizə də kimlər isə vaxtilə bu yolda köməkliklər göstərib. Məni ən çox maraqlandıran həm də bu istedadlı, yaradıcı gəncin təxəllüsü olmuşdur.*

*Teymur Həbibinin yaradıcılığında, şeirlərində məhəbbət mövzusu əsas yer tutur. Bu sevgi, məhəbbət, eşq həyatın ayrı-ayrı sahələrini əhatə edir. O, torpağı, dənizi, dağı, ağacı dərin məhəbbətlə sevdiyini oxucuya inandırır. Onun "Təbiət bağçası" və "Bulaq" şeirlərini buna misal çəkmək olar:*

***Bu gün təbiət yenə öz işində,***
***Hər zaman, hər bir an öz keşiyində.***
***Təbiət bağçası gözəl dünyadır,***
***Sakini güldür, çiçəkdir, ağacdır.***
***Torpaq öz nəfəsilə qida verir,***
***Gül, çiçək, ağac ona dua edir...***

*və yaxud:*

***Bir bulaq var gözü yaşlı,***
***Ağladıqca qəlbim ağlar.***
***Xoş simalı, gözəl qaşlı,***
***Onu görən könül bağlar.***

*Lakin müəllif insanlara olan məhəbbətini elə inandırıcı boyalarla verir ki, oxucu düşünməyə vadar olur.*

*Müəllif yazdığı "İnsan" şeirində Yaradanın insana verdiyi bütün keyfiyyətləri düzgün şəkildə sadalamışdır:*

***Adı insan, onu Allah yaradıb,***
***Yaradan Allah ağılla ucaldıb,***
***Bəzisi varlıdır, bəzisi kasıb,***
***Eyib etməz, saf olsun qəlbin, insan.***

*Müəllif "Ana" mövzusunda yazdığı şeirlərində də ananın ülvi məhəbbətindən, saflığından, təmizliyindən, zəhmətindən, pak adı ilə yüksəlməsindən danışır:*

***Ana! Bu ad nə qədər saf və təmiz,***
***Tənhalıq boğar məni olsam sənsiz.***
***Bu dərdli həyatda sən yaşa dərdsiz,***
***Pak adındır məni yaşadan, ana!***

*Sevgi dəryasında üzən Teymur Həbibi sevməyi bacarır. Lakin sevgisinə cavab tapmır. Sevgisinə cavab tapmadığı üçün "Həbibi qəm*

*qalası", "Həbibi dünyası", "Həbibi yağışı", "Sevgi dənizi" və s. mənaca dərin olan bu sözləri öz xəyallarında mücərrəd halda quraraq, şeirlərində onları xüsusi qeyd etmişdir:*

***Həbibiyəm, qəlbi dərdli şairəm,***
***Ömürlük boğçası bağlı bir sirrəm.***

*Kitabda müəllifin sevən qəlbinin çırpıntıları, həsrət yanğısı, dərdli könül sızıltıları hər bir misradan damla-damla süzülür, o qədər də böyük olmayan bu kiçik dünyanın yaşantıları ilə bizi baş-başa buraxır:*

***Həbibi, bu qədər ürəyi yorma,***
***Sevgi bir həvəsdir, ona yalvarma.***

*Teymur Həbibinin şeirlərinin içərisində şifahi xalq ədəbiyyatımızın emosional janrlarından olan bayatılara da rast gəlmək olar. Bu bayatılar arasında da məhəbbət mövzusu xüsusi yer tutur:*

***Əzizinəm, sən Leyli,***
***Bil, mən Məcnun, sən Leyli.***
***Bilirsən ki, sevirəm,***
***Gəzmə məndən gileyli.***

*və yaxud:*

***Əzizinəm, ey vətən,***
***Adın kimi gözəlsən.***
***Dil dodağa xar[1] olar,***
***Adın düşsə dilimdən.***

*Müəllif eləcə də klassik şeirimizin işlək növlərindən olan müxəmməslərə kitabında yer ayırmışdır:*

**[1] Xar - tikan.**

***Doğum tarixin üçün gözəl hədiyyə olaram,***
***Qəlbinə qonaq gəlib, ömürlük orda qalaram,***
***Ömürlük qəlbində yaşayıb, yazıb-yaradaram,***
***Qəlbində də ölüb, məzar daşımı ucaldaram,***
***Körpə uşaq kimi qoynunda yaşamaq istərəm.***

*"Natamam sətirlər" adı altında verilən müəllifin natamam fikirləri isə onun qəlbinin nə qədər kövrək, duyğularının zərif, eşqində hali-pərişan olmasından xəbər verir. Onun saf, ülvi məhəbbət ilə yanaşıb, amma cavabında isə aldığı acı, ümidsiz, yalançı, saxta münasibətlər müəllifin fikrini natamam olaraq yanğılı-yanğılı dostu qələm və həmdəmi ilhamı ilə bərabər sətirlərə düzməsindən xəbər verir:*

***Əl uzatdıq, əllər qovuşmaz oldu,***
***Halımızı dillər soruşmaz oldu.***
***Küsülü qaldıq illərlə bir sözdən,***
***Ürək alışaraq darıxmaz oldu.***

*və yaxud:*

***Allahın yaratdığı gözəl bəndə,***
***Allahı sev, ona yaxın ol sən də.***

*Müəllif və onun yaradıcılığı, yazdığı şeirlər haqqında çox xoş sözlər demək olar, sadəcə, onları siz oxucular ilə baş-başa buraxmaq daha məsləhətli olardı... Mən isə oxuyub öz fikrimi bir ədəbiyyatçı kimi bildirdim. Qaldı siz oxucular...*

*Sonda Teymur Həbibiyə insana həyatda lazım olan qarşılıqlı, arxalı və əbədi sevgi arzusu ilə bu yolda Allahın izni ilə uğur arzulayıram. İlk kitabın oxunaqlı, uğurlu olsun!*

***Nahidə Musayeva***



# ŞEÍRLƏR

# O QIZI UNUTMARAM MƏN

Gözlərim bir gözəl gördü,
Məni görüb o da süzdü,
Naz eləyib, həm də üzdü,
O qızı unutmaram mən.

Aşiq oldum zümrüd gözə,
Həsrət qaldım şirin sözə,
Deyin, bu dərdə kim dözər,
O qızı unutmaram mən.

Ürəyimdə arzu qaldı,
O qız canımdan can aldı,
Düşdüyüm bu hal nə haldır,
O qızı unutmaram mən.

Həbibi yaralı oldu,
Gözləri əzabdan doldu,
İnsan məhəbbətə quldur,
O qızı unutmaram mən.

***12.06.2003_Gürcüstan***

# XOŞBƏXT OLSUN BU İKİ GƏNC

Yığışmışıq bu məclisə,
Xoşbəxt olsun bu iki gənc.
Səbəbkarlar Faiq, Gövhər,
Xoşbəxt olsun bu iki gənc.

İki ürək bir döyünür,
Ata-analar sevinir.
Arzu-istəklər böyüyür,
Xoşbəxt olsun bu iki gənc.

Sevən tapar, sevdiyini,
Faiq tapdı sevgisini,
Gövhərtək sevgilisini,
Xoşbəxt olsun bu iki gənc.

Sevən sevəndən ayrılmaz,
İnsan sevgisiz yaşamaz,
Həbibi də onda yazmaz,
Xoşbəxt olsun bu iki gənc.

***13.06.2003_Gürcüstan***

# SƏN DÜNYAYA YARAŞIRSAN

***Zeynəb bibinin nəvəsi***
***balaca Zeynəbə***

Hər ananın arzusudur,
Qismət olsun ona nəvə.
Hər atanın arzusudur,
Qismət olsun ona nəvə.

Gözləri göy, xumar Zeynəb,
Hər kəs sənə baxar, Zeynəb.
Baxan gözlər axar, Zeynəb,
Sən dünyaya yaraşırsan.

Saçı, qaşı sarı qızdır,
Özü şirin, yaşı azdır,
Hər hərəkəti bir nazdır,
Sən dünyaya yaraşırsan.

Sevir səni atan, anan,
Hər zaman dərdinə yanan.
Böyüdükcə, sən də inan,
Sən dünyaya yaraşırsan.

Gülüşün özüntək gözəl,
Gəl qucağıma, uzat əl.
İlk dediyin söz “Ata, gəl”,
Sən dünyaya yaraşırsan.

Həbibi səntək gözələ
Şeir yazdı gülə-gülə.
Sən də yaşa gülə-gülə,
Sən dünyaya yaraşırsan.

***15.06.2003_Gürcüstan***

# XƏYALIMDAN KEÇƏN GÖZƏL

Gecələr çox tənha idim,
Bir şərab, bir badə idim,
Xəyallarda səni sevdim,
Xəyalımdan keçən gözəl.

Şahısan yuxularımın,
Şöhrətisən sən şanımın,
İlhamısan qəm dünyamın,
Xəyalımdan keçən gözəl.

Arzular var ürəyimdə,
Məhəbbətdir istəyimdə,
Sənsən mənim diləyim də,
Xəyalımdan keçən gözəl.

Dağdan axan şəlaləsən,
Eşq şamıma pərvanəsən,
Sən mənimçün bir dənəsən,
Xəyalımdan keçən gözəl.

Badə doldu göz yaşımla,
Tufan qopdu harayımla,
Vida etdim xəyalımla,
Xəyalımdan keçən gözəl.

***02.07.2003_Bakı***

# XƏSTƏYƏM, DƏRMANIM YARDIR

Dil tutulur, göz yumulur,
Boğazımda su quruyur,
Təzyiqim də məni boğur,
Xəstəyəm, dərmanım yardır.

Sağalmağa yox gümanım,
Damarda dayanır qanım,
Ürəyi incidir ağrım,
Xəstəyəm, dərmanım yardır.

Çarpayıya oldum yaxın,
Düşdüyüm bu dərdə baxın,
Qəlbim sınıb, yarı tapın,
Xəstəyəm, dərmanım yardır.

Həbibi yarın axtarır,
Həsrətlə ətrafa baxır,
Heç kim ona əl uzatmır,
Xəstəyəm, dərmanım yardır.

***12.07.2003_Bakı***

# QƏMLİ MƏHƏBBƏT

Mən sevən yarımı bu həyat aldı,
Qoynunda can verdi, soldu, saraldı,
Qurulan ümidlər dağıldı, qaldı,
Yazıldı daşlara qəmli məhəbbət.

İndi nə haldayam, bir Allah bilir,
Bir də içimi göynədən ah bilir,
Əllər göz yaşımı quruda bilmir,
Yazıldı daşlara qəmli məhəbbət.

Məzarın qəlbimdir, sən uyu rahat,
Səni yaşadacam, olma narahat,
Həbibi, döz sən də, gözəldir həyat,
Yazıldı daşlara qəmli məhəbbət.

***10.11.2003_Bakı***

# EY YAR

Həqiqəti görüb ağladı gözlər,
Puç oldu bir ətək yazılmış sözlər,
Ocaqsız yarandı ürəkdə közlər,
Dərindir qəlbimin yarası, ey yar!

Qəlbimə dağ çəkdi sənin qamətin,
İnanmazdım, mənə olmaz hörmətin.
Sən deme, sənin yoxmuş məhəbbətin,
Bəs niyə sevirəm söylədin, ey yar?!

Məni ağladan tar olub, bir də sən,
Dərdə dözmədi, ruh çıxdı bədəndən.
Həbibini son mənzilə ötürən
Sənin vəfasızlığın oldu, ey yar!

***29.11.2003_Bakı***

# BU HƏYATDAN CAVAN KÖÇDÜN, SEVGİLİM

Qara torpaq səni aldı əlimdən,
Ayrı saldı bizi bir-birimizdən,
Zülfündən[1], hüsnündən[2], şirin dilindən.
Həsrət qaldım o qamətə, sevgilim.
Bu həyatdan cavan köçdün, sevgilim.

Dizlər üstə çöküb qəbrini öpdüm,
Qərənfillərin fəryadını gördüm,
Məhəbbətin saflığını düşündüm.
Ağlayır dərdə xiyaban, sevgilim.
Bu həyatdan cavan köçdün, sevgilim.

İndi öz qəbrində yatırsan tənha,
Bu həyat mənə sənsiz olub səhra,
Tale yollarımda açıldı yara,
Yaralarım sağalmadı, sevgilim.
Bu həyatdan cavan köçdün, sevgilim.

Şəklinə baxıb xəyallara daldım,
O illəri yada salıb ağladım,
Son baxışda ürəyimə ox sancdım,
O dünyada qovuşarıq, sevgilim.
Bu həyatdan cavan köçdün, sevgilim.

Yarımın məzarı qana boyandı,
Həbibini özü ilə apardı.
Qəlblər birdir, məzarlar isə ayrı,
Kaş məzarlar bir olaydı, sevgilim.
Bu həyatdan cavan köçdün, sevgilim.

***30.11.2003_Bakı***

**[1] Zülf - tel.**
**[2] Hüsn - sima.**

# ŞAİR

Bir ilhamlı şair var, adı Peyman,
Hər sözü sanki damarda axan qan,
Qələmidir oxucunu ağladan,
İlhamının kökü dərindir, şair.

Nitqin insanlarda sükut yaradır,
Yazdığın qəzəllər qanlı yaradır,
Əsərlərin ürəklərdə yaşayır,
Ürəklərdir səni yaşadan, şair.

Qismət olsun yüksək zirvələr sənə,
Bu həyat yolunda uğurlar yenə,
Əziz dost, könül vermə hər sevənə,
Hər sevirəm deyən dil sevməz, şair.

Bu sənətdə sən verdin mənə qanad,
İlhamıma ilham qatıb, oldun şad.
Məni xalqa tanıtdı "Həbibi" ad,
Minnətdaram hər zaman sənə, şair.

Həbibinin Peymana bu naməsi,
Əldə qələm, yazılan hər kəlməsi,
Dosta dayaq, dosta dəstək verməsi,
Düşdü tarix səhifəsinə, şair.

***16.12.2003_Bakı***

# KİTABİ-MEHRİM

Kədərlidir mənim kitabi-mehrim[1],
Bəhri qəmdə[2] batıb bəxtsiz taleyim.
Xürrəmə[3] həsrət qalıbdır gözlərim,
Eh, müzgi-qəmgindir[4] kitabi-mehrim.

Bu sevgi şeyda[5] etdi məni yaman,
Hətta nəzarü-bihuş[6] etdi inan.
Ari[7] eşqə hörmətim çox hər zaman,
Eh, müzgi-qəmgindir kitabi-mehrim.

Xar[8] olub mənə əzab verən gözəl,
Natəvan[9] edib sonda sevən gözəl,
Bil, duzaq[10] da bezibdir səndən, gözəl!
Eh, müzgi-qəmgindir kitabi-mehrim.

Bəzmlərdə[11] olanda üzüm güləyən,
İçim alışqandır, gözüm güləyən,
Gur işığın gözünə kül ələyən,
Bəlkə işıqsızdır kitabi-mehrim.

Əbri-neysandan[12] dərdimi soruşun.
O bilir dərdimi, ona qovuşun.
Onsuz həyatım əza[13], itər huşum,
Bəlkə də əzadır kitabi-mehrim.

Mən, Həbibi hüsn ilə key[14] axtarır,
Axtarışda əşki-xunla[15] rastlaşır,
Kərih[16] gözəllər yolundan azdırır,
Eh, müzgi-qəmgindir kitabi-mehrim.

***17.12.2003_Bakı***

---

**[1] Kitabi-mehrim - məhəbbət kitabım.**
**[2] Bəhri qəm - qəm dənizi.**
**[3] Xürrəm - şad.**
**[4] Müzgi-qəmgin - kədərli quş.**
**[5] Şeyda - eşqdən ağlını itirmiş.**
**[6] Nəzarü-bihuş - xəstə, huşsuz.**
**[7] Ari - saf, təmiz.**
**[8] Xar - tikan.**
**[9] Natəvan - gücsüz.**
**[10] Duzaq - cəhənnəm.**
**[11] Bəzm - məclis.**
**[12] Əbri-neysan - bahar yağışı.**
**[13] Əza - matəm, yas.**
**[14] Hüsn ilə key - gözəllər padşahı.**
**[15] Əşki-xun - qanlı göz yaşı.**
**[16] Kərih - iyrənc.**

# ƏZİZ DOST

Düz sözünlə bu qəlbimi xoş etdin,
Yazdığın şeirlə dərdimi dedin.
Səmimi-qəlbdən də tərif elədin,
Sənətinə hörmətim çox, əziz dost!

Həyat yollarında ömrün solmasın,
Qəlbin dərd çəkməsin, gözlər dolmasın,
Gələcəyə ümidlərin çoxalsın,
Hər şey hələ qabaqdadır, əziz dost.

Sağlığında Talehə var hörmətim,
Hörmətinə beşdir mənim qiymətim,
Gənc şairi sevir mənim millətim,
Bizlərə sən yararlısan, əziz dost.

Vulkan kimi püskürür səndə sözlər,
Məhəbbətdən alışıb-yanır gözlər,
Gənc şairsən, səni sevir gözəllər,
Hər şeirin bir dəryadır, əziz dost.

Ürəyi saf Həbibidən Talehə,
Şair, bəzən də bənzəyirsən şehə,
Əməllərin düzdür, özünsə şaha,
Hər fikrin, sözün fərmandır, əziz dost.

***19.12.2003_Bakı***

# SÜSANƏ

Güldən də ətirli, baldan da şirin,
Qamətinə yaraşır incə belin,
Məni ilhamlandırdı şirin dilin,
Səs telləri incə olan Süsanə.

Hər gün, hər an mən səni düşünürəm,
Sənsiz tək qalanda mən üşüyürəm,
Səni qəmli görəndə üzülürəm,
Üzülməyə qoyma məni, Süsanə.

Sən mənim yanımdan keçəndə, gözəl,
Gözlərim həmin anda səni gəzər.
Gözəllik könlümü sevinclə bəzər.
Sənsən könlümün sevinci, Süsanə.

Sakit gecə, yazdım bu şeiri mən,
Hər sətirdə Həbibiyə bəzəksən.
Sən gecələr həzin əsən küləksən,
Təbiətin şıltaq qızı, Süsanə.

***30.12.2003_Bakı***

# SƏNİ AXTARIRAM, YAR, HARADASAN?

Tənha səhralarda izim qalıbdır,
Sonsuz yollarımda izim azıbdır,
Hər qaraltıya gözlərim çaşıbdır,
Səni axtarıram, yar, haradasan?

Sağa, sola boylanıram mən hər an,
Səma da ulduzsuz olub pərişan,
Yerin, göyün dərdi toqquşub yaman,
Səni axtarıram, yar, haradasan?

Gözlənilməz bir anda yağış yağdı,
Buludlardan dərdli göz yaşı axdı,
Bir anlıq ətraf qəhərə boyandı,
Səni axtarıram, yar, haradasan?

Həbibinin dərdini gecə bilir,
Dərdlərimiz bizi yaman incidir,
Mən yarı, gecə gündüzü izləyir,
Səni axtarıram, yar, haradasan?

***03.01.2004_Bakı***

# MÜXƏMMƏS

Zülfündə[1] daraq olub zülfünü mən darayaram,
Daradıqca zülfünü nur hüsnünə[2] toxunaram,
Hüsnündə olan gözəl xala gözəllik qataram,
Gözəllik aləmində də özümü unudaram,
Körpə uşaq kimi qoynunda yaşamaq istərəm.

Müjdanın[3] olub qoymaram gözlərindən yaş axsın,
Qoymaram göz yaşlarını nur hüsnünü islatsın,
Qoymaram göz yaşı ləbinin[4] tamını aparsın,
Qoymaram şirin dilini göz yaşını yalasın,
Körpə uşaq kimi qoynunda yaşamaq istərəm.

Doğum tarixin üçün gözəl hədiyyə olaram,
Qəlbinə qonaq gəlib, ömürlük orda qalaram,
Ömürlük qəlbində yaşayıb, yazıb-yaradaram,
Qəlbində də ölüb, məzar daşımı ucaldaram,
Körpə uşaq kimi qoynunda yaşamaq istərəm.

Gözmuncuğu olub səni pis gözdən qoruyaram,
Eşq dərmanı olub qəlbinə saflıq bəxş edərəm,
Başında tac olub hər an adını ucaldaram,
Vətən və qürbətdə səni tanıdıb sevdirərəm,
Körpə uşaq kimi qoynunda yaşamaq istərəm.

Həbibi dünyasında Həbibinin sən yarısan,
Bağçasında qızılgül, otağında çırağısan,
Nurlu səhərə günəşsən, tənha gecəyə aysan,
Gələcəyə ümid üçün yalvardığı duasan,
Körpə uşaq kimi qoynunda yaşamaq istərəm.

***10.01.2004_Bakı***

---
[1] **Zülf - tel.**
[2] **Hüsn - sima.**
[3] **Müjdan - kirpik.**
[4] **Ləb - dodaq.**

# İNSAN

Adı insan, onu Allah yaradıb,
Yaradan Allah ağılla ucaldıb,
Bəzisi varlıdır, bəzisi kasıb,
Eyib etməz, saf olsun qəlbin, insan.

Torpaqdan yaranıb torpağa getdin,
Bəzən yaxşılıq, bəzən pislik etdin,
Hərdən möcüzətək qeyb olub itdin,
Bu həyat möcüzə, həm çətin, insan.

Namaz qıl, Oruc tut, oxu sən Quran!
Allahdır bizləri yıxan, qaldıran!
Kafirdir şərabı dilinə vuran!
Tutsan pis əməli, pis addır, insan!

Olma sən həyatdan bəzən gileyli,
Sən də sev, necə ki, sevibdir Leyli,
Yaxşıya yaxşı ol, artır xoş meyli,
Qoy desinlər, sənə halaldır, insan.

Göydə Allahımız, yerdə anamız,
Deyib bunu gözəl Yaradanımız.
Dara düşəndə çoxalır duamız,
Şərin də, xeyrin də yazılır, insan.

Həbibi, bu dünya hələ cavandır,
Ömrümüzü öz əlilə yazandır,
Əcəllə bir gorumuzu qazandır,
Ya mərd, ya da ki, tez sınandır insan.

***17.01.2004_Bakı***

# AY VƏ ULDUZUN TOYU

*(Mənzum şeir)*

Bir gecə bir Ulduz Aya vuruldu,
Həmin gecə Aya nəğmə qoşuldu,
Göydə toy-bayram havası duyuldu,
Neçə illik arzu yerinə yetdi.
Bulud da onlara sevinc bəxş etdi.

Əl-ələ verib səmada gəzdilər,
Ay və Ulduzun toyunu etdilər,
Günəşə də tez xəbər göndərdilər,
Neçə illik arzu yerinə yetdi.
Bulud da onlara sevinc bəxş etdi.

Səma al-əlvan içrə bəzənmişdi,
Məclisə yaxın qohumlar gəlmişdi,
Sağdış da, solduş da məclisdə idi,
Neçə illik arzu yerinə yetdi.
Bulud da onlara sevinc bəxş etdi.

Məclisə Günəş tamada seçildi,
Günəş məclisi açıq elan etdi,
“Cənablar, bəylər, xoş gəlmisiz” - dedi.
Neçə illik arzu yerinə yetdi.
Bulud da onlara sevinc bəxş etdi.

Qohumlar, yaxınlar yeyib-içdilər,
Ay və Ulduza sağlıqlar dedilər,
Günəşə də təşəkkürlər etdilər,
Neçə illik arzu yerinə yetdi.
Bulud da onlara sevinc bəxş etdi.

Vağzalı ilə məclis başa çatdı,
Gənc ailə öz arzusuna çatdı,
Günəş də sonda məclisə nur saçdı,
Neçə illik arzu yerinə yetdi.
Bulud da onlara sevinc bəxş etdi.

***11.03.2004_Bakı***

# MÜXƏMMƏS

Dərdimdən axıtdığın qanlı göz yaşa möhtacam.
Donmuş vücudum önümdə son baxışa möhtacam.
Ruhsuz bədənə ruhumu qaytarmağa möhtacam.
Gözlərimi qəm dünyasından açmağa möhtacam.
Sənsiz dünyamı səninlə yaşamağa möhtacam.

Sərvi-xuraman[1] yar, ənbər[2] ləli-ləbə[3] möhtacam,
Kövrək qəlbimi sakitləşdirən qəlbə möhtacam,
Üşüyən bədənimi isidən ələ möhtacam,
Hər zaman "türfə[4] yarım" - dediyin dilə möhtacam,
Sənsiz dünyamı səninlə yaşamağa möhtacam.

Hər gecə sevgimizə yağan yağışa möhtacam,
Yağışa nazla baxan xumar baxışa möhtacam,
Zülfündə[5] damcıdan yaranan naxışa möhtacam,
Qəlbinin aynası ala gözə, qaşa möhtacam,
Sənsiz dünyamı səninlə yaşamağa möhtacam.

Ləblə ləbə verdiyin busə[6] paylara möhtacam,
Dilimə tam verdiyi gül yanaqlara möhtacam,
Həbibiyəm, Leylisiz Məcnuntək yara möhtacam,
Dünyam işıqlı olsa da, qəlbim qara, möhtacam,
Sənsiz dünyamı səninlə yaşamağa möhtacam.

***06.06.2004_Bakı***

---

**[1] Sərvi-xuraman - ucaboylu gözəl.**
**[2] Ənbər - ətirli.**
**[3] Ləli-ləb - yaqut kimi qırmızı dodaq.**
**[4] Türfə - tayı-bərabəri olmayan.**
**[5] Zülf - tel.**
**[6] Busə - öpüş.**

# BİZ AD GÜNÜMÜZÜ BİR QEYD EDİRİK

Məhəbbət buludundan yağış yağır,
Sən, mən, bir də ki, narın yağan yağış.
Ya Rəbb, bu günümüz sanki bir nağıl,
Elə bil ki, nağıllarda gəzirik,
Biz ad günümüzü bir qeyd edirik.

Yağsın yağış biz bir olana qədər,
Bizdən uzaq olsun ayrılıq, kədər,
Bu gecəyə qonaq gəlməsin səhər,
Səhərdən çox biz gecəni sevirik,
Biz ad günümüzü bir qeyd edirik.

Biz tərəfə əsməsin dəli külək,
Əğyardan gətirməsin hiylə, kələk,
Biz isə həmin gecə sakitcə, tək,
Günümüzə xoş arzular deyirik,
Biz ad günümüzü bir qeyd edirik.

Şərab da qoşulub sevincimizə,
Sağlıqlar söylətdirir dilimizə,
Təbriklər deyirik bir-birimizə,
Ürəyimiz doludur söyləyirik,
Biz ad günümüzü bir qeyd edirik.

Eşqin təsirindən yandı qəlbimiz,
Gözlənilmədən də aşdı həddimiz,
Sonda da sarılıb öpüşərək biz,
Ehtirasdan da coşub sevişirik,
Biz ad günümüzü bir qeyd edirik.

Səhər açıldı, yuxudan oyandıq,
O günləri biz heç vaxt unutmarıq,
Həbibi dünyasından ayrılmarıq,
Çünki bu dünya dəryadır, bilirik,
Biz ad günümüzü bir qeyd edirik.

***09.07.2004_Bakı***

# İSMİ-TEYMUR

***(Avtobioqrafik şeir)***

İsmim Teymur, kiməm mən? - on yeddi yaşlı bir gənc,
Təxəllüsüm Həbibi, dərdlərim isə iyrənc.
Lap əzəldən bu sənətə olub mənim meylim,
Bədahətən çox gözələ şeir deyib dilim.
Sən demə, elə gözəllər varmış içi ilan,
Dilindəki zəhərlə çox oldu məni sancan.
Qara lent bağladı belə gözəl qələmimə,
Bu inamsız həyatda dərd artırdı dərdimə.
Dözülməz dərdimi "Kitabi-mehrim[1]" də yazdım,
Acı həyatımı hər bir misrada anlatdım.
Sevirəm gecəni, bir də sevgi yağışını,
Yağış altında baxan o nazlı baxışını.
Mənə həmdəm olur tənha küçə, tənha gecə,
Xatirələr beynimdə gəzir sakit, gizlicə.
Ay da öz işığını salır kövrək qəlbimə,
Ulduzlar da həmdəm olur həmin an dərdimə.
Şair olub bu qoca dünyadan köçəndə mən
Buludlar son dəfə göz yaşı töksün dərdimdən.
Mən öləndə məni qəlbində sevən ağlasın,
Dərdli Həbibi deyə o, məni xatırlasın.
Bu misramı, əziz oxucu, diqqətlə oxu!
Məzarım abidə olsun, bura gəlsin çoxu.
Hələlik sağam, yaşayıb, yazıb-yaradıram,
Şeirlərimi sevən qəlblərdə yaşadıram.
İlhamım şah, dilim vəzir, qələmim də cəllad.
Hər biri vəzifəsinə görə qazandı ad.

***05.08.2004_Bakı***

---

**[1] Kitabi-mehrim - məhəbbət kitabım.**

# OLA BİLSƏYDİM...

Mən bir tarzən olub çala bilsəydim,
Gecə və gündüzə nəğmə deyərdim.
Ömrümü, günümü qurban verərdim,
Heç vaxt, bu sənətdən doydum, deməzdim.

Mən bir çiçək olub aça bilsəydim,
Zamansız, vaxtsız solmaq istəməzdim.
Sevənlərin əlində sevilərdim,
Sevənlərin əlində sevinərdim.

Mən bir dəniz olub coşa bilsəydim,
Dalğalarla sahili isidərdim.
Sevənləri özümə cəlb edərdim,
Özümə "Sevgi dənizi" deyərdim.

Mən bir aylı gecə ola bilsəydim,
Tənhalığı özümə dost seçərdim.
Dərdimi gecə ilə bölüşərdim,
O gözəl anları xoş keçirərdim.

Mən Yaradan qüvvə ola bilsəydim,
Qara buludu səmadan silərdim.
Səmanın üzünü aça bilərdim,
Həmin anda ürəkdən sevinərdim.

Mən bir cavan ağac ola bilsəydim,
Böyüyüb ətrafa kölgə salardım.
Dostlarımı bura dəvət edərdim,
Sirlərimi mən onlara açardım.

Mən bir bulaq suyu ola bilsəydim,
Dağlardan, dərələrdən tökülərdim.
Bulaq başında qızları görərdim,
Onlara da saf sevgi diləyərdim.

Mən bir quştək göydə uça bilsəydim,
Göyün gözəlliyini seyr edərdim.
Göydən yerə heç enmək istəməzdim,
Allaha yaxın olmaq istəyərdim.

Mən bir qələm olub, yaza bilsəydim,
Cahana "Xoşbəxtlik himni" yazardım,
Sevənlərə "Sevgi himni" yazardım,
Amma heç vaxt ayrılıqdan yazmazdım.

Mən bir yağış olub yağa bilsəydim,
Göydən yerə narın-narın düşərdim.
Həbibi dünyasını bəzəyərdim,
Bu dünyadan ayrılmaq istəməzdim.

***07.08.2004_Bakı***

# XATİRƏLİ BİR GECƏ...

Qaranlıq bir otaqda oturmuşam,
Xatirəli bir gecədir bu axşam.
Həmdəmimdir qələm, kağız, şərab, şam,
Səhranın möhtac qaldığı yağışam.

Bir məclis qurmuşam bu otaqda mən,
Məclisdə nə danışan var, nə gülən.
Nə ağlayan var, nə də kədərlənən,
Nə sevinən var, nə də sevindirən.

Amma bu məclisin səbəbkarı var,
Səbəbkarı bir vaxt mənə olan yar.
Birgə keçirdiyimiz gözəl anlar,
İndi xatirələrdə xatırlanır.

Bir qız vardır, aşiq idim ona mən,
Öz sevgimə sadiq idim ürəkdən.
Bir zaman üz-üzə gələndə birdən,
Doymadı həmin an gözlər gözlərdən.

Bir neçə an durub üz-üzə baxdıq,
Sonra da barmaqlara xatəm[1] taxdıq.
Sevincdən göz yaşı gözdən axıtdıq,
Sonra bir-birimizi qucaqladıq.

Bir neçə anlıq hər şeyi unutduq,
Yanağımızdan göz yaşın qurutduq,
Əl-ələ tutub düz yola üz tutduq,
Eşq nəğməsin bülbüllərə oxutduq.

Gözəl səslə oxuyurdu bülbüllər,
Bu səsin aşiqi olmuşdu güllər.
Bu səsə aşiq olmuşdu sevənlər,
Hətta gözəl, ətirli yasəmənlər.

Məhəbbət dünyasını gəzdikcə biz,
Dedik: bu dünya bizə doğma, əziz,
Dedik: bu dünyatək safdır sevgimiz,
Tez başladı döyünməyə qəlbimiz.

Bağdan sənə ətirli gül dərərdim,
Gülləri bir-bir telinə düzərdim,
Ballı ləbi[2], siyah[3] zülfü[4] öpərdim,
Məndən küsüb barışmasan, ölərdim.

Çeşmi-tərin[5] görəndə pis olardım,
Gül yanağın islansaydı, sızlardım,
Zülfün pərişan olsaydı, yığardım,
Sənə baxıb xəyallara dalardım.

Tarımla sənə nəğmələr çalardım,
İlk nəğməni istəyinlə başlardım,
Qələmimlə sənə şeir yazardım,
Yazardım, coşardım, yenə doymazdım.

Gecələr eşq laylasın oxuyardın,
Mən də doymadan hey qulaq asardım.
Səsinlə məni qəlbinə alardın,
Mən də doymadan məst olub yatardım.

Həyatda da, yuxuda da bir idik,
Saf sevgimizlə irəliləyirdik,
Dərdi-dili-pünhanla[6] bölüşürdük,
Sonra da dərdlərdən çox üzülürdük.

Heyif, könlümü verib dərd qazandım,
Sevgi yolunda ayrılıq qazandım,
Məhəbbət dünyasında qəm qazandım,
Özümə vəfasız bir yar qazandım.

Kölgəm də, ruhum da ondan küsübdür,
Xəyalımda o qız məni üzübdür,
Şərab dərdimə bir badə süzübdür,
Dilim isə bu tamdan üyüşübdür.

Badənin içi dolu qəm şərabla,
Qəlbimin içi göynəyir harayla,
Qan da dərddən vida edir damarla,
Ruh da dərddən vida edir bu canla.

Dörd divar dərdimə tamaşa edir,
Elə bil səhnədə tamaşa gedir,
Bu tamaşa faciə ilə bitir,
Alqış göz yaşıyla əvəz edilir.

Şam yanmayır, amma göz yaşın tökür,
Sərsəri bir külək aləmi sökür,
Sonra da ətrafı sükut bürüyür,
Qaranlıq otaq get-gedə üşüyür.

***16.08.2004_Bakı***

**[1] Xatəm - üzük.**
**[2] Ləb - dodaq.**
**[3] Siyah - qara.**
**[4] Zülf - tel.**
**[5] Çeşmi tərin - yaşla islanmış göz, ağlar göz.**
**[6] Dərdi-dili-pünhanla - qəlbin gizli dərdləri.**

# GÖY XƏZƏRDƏ ÇİMƏN GÖZƏL

*(Novxanı çimərliyi)*

Göy Xəzərdə çimən gözəl,
Heyran oldum ağ bədənə.
Göy Xəzərdə çimən gözəl,
Vuruldum incə belinə.

Naz edirsən göy Xəzərə,
Dalğalara, ləpələrə,
Qumlu dəniz sahilinə,
Göy Xəzərdə çimən gözəl.

Bənzəyirsən ağ balığa,
Bürünmüsən tül yaylığa,
Acıq vermə mən yazığa,
Göy Xəzərdə çimən gözəl.

Göz-qaş edib gah süzürsən,
Hərdən də baxıb gülürsən,
Suda balıqtək üzürsən,
Göy Xəzərdə çimən gözəl.

Zülm verirsən sən bu cana,
Nazın ilə yana-yana,
Şiş batsın səni doğana,
Göy Xəzərdə çimən gözəl.

Yaxınlaşıb salam verdim,
Qadanı alaram dedim,
Əl uzadıb tərin sildim,
Göy Xəzərdə çimən gözəl.

Çox keçmədi xeyli gəzdik,
Dünyanın xoşbəxti bizdik,
Sağı-solu xeyli süzdük,
Göy Xəzərdə çimən gözəl.

Uzanıb sahil boyunca,
Danışdıq eşqdən doyunca,
Hərdən çimdik yorulunca,
Göy Xəzərdə çimən gözəl.

Bax, beləcə bu günümüz
Keçərək, güldü üzümüz.
Kədər nədir bilmədik biz,
Göy Xəzərdə çimən gözəl.

Günəş də bizimtək qızıb,
Bizi yazan belə yazıb,
Eşqdən ağlımızı alıb,
Göy Xəzərdə çimən gözəl.

Sağollaşıb ayrılanda,
Nömrəmizi də alanda,
Əl sallayıb boylananda,
Göy Xəzərdə çimən gözəl.

Zülfün[1] pərişan-pərişan,
Şair Həbibidir coşan,
Coşub sənə şeir qoşan,
Göy Xəzərdə çimən gözəl.

***29.08.2004_Bakı***

---
[1] **Zülf - tel.**

# NAMƏ

Bu naməni[1] yazmaq istəmir əlim,
Amma bunu tələb edir ürəyim.
Salam! Oxu, bu naməni yazıram,
Yazıram ki, səninlə ayrılıram.

Ayrılıram ürəyinlə, qəlbinlə,
Ayrılıram məni öpən ləbinlə[2],
Ayrılıram nur hüsnünlə[3], zülfünlə[4],
Ayrılıram ala gözlü gözünlə.

Ayrılıram nəfəsinlə, səsinlə,
Ayrılıram xoş danışan dilinlə,
Ayrılıram qucaqlayan əlinlə,
Ayrılıram gözəl, şux qamətinlə.

Ayrılıram görüşdüyümüz yerlə,
Ayrılıram məndə qalan rəsminlə,
Ayrılıram yazılan bu şeirlə,
Ayrılıram ruhun ilə cisminlə.

Ayrılıram sənlə olan otaqla,
Ayrılıram yatdığımız yataqla,
Ayrılıram gəzdiyimiz o bağla,
Ayrılıram, sağ ol! İstərsən ağla...

***01.09.2004_Bakı***

---

**[1] Namə - məktub.**
**[2] Ləb - dodaq.**
**[3] Hüsn - sima.**
**[4] Zülf - tel.**

# HƏSRƏT - AYRILIQ

***Həsrət (oğlan):***
Sus, danışma, ağlama, məni dinlə!
Gör, mən nə deyirəm son nəfəsimdə.
Niyə ayrılırsan məndən, ey gülüm?
Bəlkə bəs etmədi verdiyim könlüm?

***Ayrılıq (qız):***
Dinlə məni, artıq səni sevmirəm,
Bu könlümü daha sənə vermirəm,
İstəmirəm sənin kimi yarı mən,
Silirəm adını yaralı qəlbdən.

***Həsrət (oğlan):***
Burda şahidimiz tək Allah olsun!

***Ayrılıq (qız):***
Burda sevgimizin gözünü oysun!

***19.09.2004_Bakı***

# KÖNÜL QƏFƏSİMDƏ DÖYÜNÜR ÜRƏK

Ürəyim çırpınır dəli çay kimi,
Zindana salınmış bir dustaq kimi,
Günəş həsrətilə yanan ay kimi,
Könül qəfəsimdə döyünür ürək.

Könül qəfəsimin qapısı bağlı,
Ürəyi incidir candakı ağrı,
Get-gedə aparır ölümə doğru,
Könül qəfəsimdə döyünən ürək.

***24.09.2004_Bakı***

# ŞAİR HƏBİBİNİ YOLDAN EDƏN VAXT

Çox boğmuşam ilhamımı coşan vaxt,
Çox pozmuşam sözlərimi yazan vaxt,
Çox azmışam xəyallara dalan vaxt,
Sonra da şeirlə xatırlanan vaxt.

Çox uymuşam gözəlləri görən vaxt,
Çox azmışam yollarında itən vaxt,
Çox peşmanam vəfasız yar sevən vaxt,
Şair Həbibini yoldan edən vaxt.

***26.09.2004_Gürcüstan***

# QƏLBİMİN SAKİNİ SƏNSƏN

Könlümü sənə verirəm,
İnan, səni çox sevirəm,
Səmimi-qəlbdən deyirəm,
Qəlbimin sakini sənsən.

İstəmirəm başqa yarı,
Sonra da qazanım ağrı.
Gözəlim, gəl mənə sarı,
Qəlbimin sakini sənsən.

Mən Həbibi, sənsə canan,
Xoşbəxt olaq biz hər zaman,
Bizdən uzaq olsun yalan,
Qəlbimin sakini sənsən.

***28.09.2004_Bakı***

# BİR ALƏMSƏN GÖZƏLLİKDƏ

Nə gözəldir gözün, qaşın,
Bir aləmsən gözəllikdə.
Çox da olsa, sənin yaşın,
Bir aləmsən gözəllikdə.

Qısa zülflü[1], ağbənizli,
Gözləri mavi dənizli,
Gəl görüşə gizli-gizli,
Bir aləmsən gözəllikdə.

Hərdən gözlərdən yaş axar,
Bütün aləm sənə baxar,
Bəzən də ürəyi sıxar,
Bir aləmsən gözəllikdə.

Olmasın dərdin, nə qəmin,
Məhəbbətə yox inamın,
İnanarsan bir gün, Amin!
Bir aləmsən gözəllikdə.

***11.10.2004_Bakı***

---
[1] **Zülf - tel.**

# KÖNÜL VERİB, DƏRD QAZANDIM

Bir qız sevdim bu həyatda,
Könül verib, dərd qazandım.
Yar sandım onu həyatda,
Könül verib, dərd qazandım.

Dastan olmasa da, sevgim,
Dastan oldu yardan dərdim.
Həmdəm oldu dərdə qəlbim,
Könül verib, dərd qazandım.

Bu tarixdə, bu anda mən
Bu sevgiyə son deyirəm!
Bu sevgiyə don deyirəm!
Könül verib, dərd qazandım.

***21.10.2004_Bakı***

# NƏ GÖZƏLDİR BU QIZ, ALLAH!

*Günay xanıma*

Zülfü[1] buruq, hüsnü[2] dümağ,
Nə gözəldir bu qız, Allah!
Gözlər zümrüd, əllər də ağ,
Nə gözəldir bu qız, Allah!

Məni görüb, gizlin baxır,
Gah utanır, gah sıxılır,
Barmaqlara xatəm[3] taxır,
Nə gözəldir bu qız, Allah!

Bir boya vurmaz hüsnünə,
Çünki gözəldir həmişə,
Ürəyi də saf bir şüşə,
Nə gözəldir bu qız, Allah!

Yerişi ilə naz edər,
Həbibiyə acıq verər,
Sonda canı üzüb gedər,
Nə gözəldir bu qız, Allah!

***03.11.2004_Bakı***

---

[1] **Zülf - tel.**
[2] **Hüsn - sima.**
[3] **Xatəm - üzük.**

# HƏR GÖRƏNDƏ...

*Günay xanıma*

Hər görəndə fikirlərə,
Xəyallara dalıram mən.
Görməyəndə bu ürəyə
Eşq oxunu sancıram mən.

Utanıram min söz deyib,
Bir söz səndən alınca mən.
Şirin dilini eşidib,
Məni candan yorunca sən.

Bu dörd fəslin dörd libası,
Qamətinə çox yaraşır.
Qəlbin görməsin eşq yası,
Görsə, alın tez qırışır.

Həbibiyəm, sən gözəlin
Həsrətindən yandı canım.
Yanımda görsəydim gəlin
Xoşbəxt olardı hər anım.

*04.11.2004_Bakı*

# BƏZƏN OLUR...

***Bəzən olur...***
Gözlərimin nazı tutur,
Sonra isə məni yorur.
Gah ağladır, gah sızladır,
Gah yatırdır, gah oyadır.

***Bəzən olur...***
Damla-damla göz yaş tökür,
Kövrək qəlbimi üşüdür.
Sonda o, yenə dayanır,
Məni xəyala daldırır.

***Bəzən olur...***
Gözlərimi torlar tutur,
Kainata həsrət qoyur.
Bu dünyanın işığına,
Yana-yana möhtac olur.

***08.12.2004_Bakı***

# GÖZÜ YOLDA QALAN ANA

*Bir ananın dilindən...*

Övlad həsrətilə döyünən ürək,
Döyündükcə məni yaman incidir.
Bəzən də darıxıb, hey üzülərək,
Dərdimə çalınan kaman incidir.

Bir vaxtı başıma yığılan günlər,
Bir deyib, bir gülüb, xoş keçən illər,
Sizin yolunuzda ağaran tellər,
Bizləri ayıran zaman incidir.

Köçəri quştək vətəndən getdiniz.
Qərib eldə bu qəlbi incitdiniz,
Bağımda yox, bağçalarda bitdiniz,
Həsrətdən göynəyən tikan incidir.

Yuxularda tez-tez sizi görürəm,
Dərdi gizlədib, sevinci bölürəm.
Gözümü açıb sizsiz üzülürəm,
Yoxluğunuz məni hər an incidir.

Xəstə oldum, məni yoxlamadınız,
Bayramda da heç yada salmadınız,
Mən bir yana, vaxtsız köçən atanız,
Məzarında ruhu inan incidir.

Artıq yaşım da o yaş deyil mənim,
Sizsiz qoca dünya mənə tənhadır.
Eh, rəhmətlik olan könül həmdəmim,
Yetər bu intizar, yaman incidir.

***06.01.2005_Bakı***

# ELƏ BİL...

Elə bil qəlbin sualla doludur,
Mümkünsə, yağdır sualları mənə.
Elə bil danışan dilin donubdur,
Mümkünsə, yağdır sözləri üstümə.

Elə bil qəlbinə yad sakinəm mən,
Nifrət dolu baxışlarla süzürsən.
Elə bil canında son nəfəsinəm,
Danışmayıb, öz canından bezirsən.

Elə bil barmağında üzüyünəm,
Məni zorla barmağına taxırlar.
Elə bil mən bir matəm nəğməsiyəm,
Məni oxudub, səni ağladırlar.

Elə bil məni əğyartək görürsən,
Get-gedə nifrətin çoxalır mənə.
Elə bir gözlərlə məni süzürsən,
Oxşadırsan məni şeytana, cinə.

***09.01.2005_Bakı***

# GÖZƏL

Gözlərim gözünə baxanda, gözəl,
Gözlərin gözümə baxmadı, gözəl.
Qəlbim qəlbinə eşq elan edəndə,
Qəlbin qəlbimi heç saymadı, gözəl.

Əllərim qızılgül təqdim edəndə,
Əllərin gülümü qəbul etmədi.
Titrək nəfəsimlə bir söz deyəndə,
Dilin danışmağa imkan vermədi.

Yandırdın bu qəlbi, yar, öz nazınla,
Yandıqca bu qəlbim can demədin sən.
Yolumdan azdırdın xoş avazınla,
Heç olmasa gül dedim, gülmədin sən.

Həbibiyəm, bir gözələ can verdim.
Durub yolun üstə axar qan verdim.
Haradan bilərdim sevdiyim gözəl
Sevməyəcək, ölümə fərman verdim.

***15.01.2005_Bakı***

# BİR SALAMDIR ARAMIZDAKI SÖHBƏT

Bir salamdır aramızdakı söhbət,
Bir də ki, həsrətli baxan baxışlar.
Ürəkdə gizli yaşayır məhəbbət,
Bir də ki, həsrətdən doğan qarğışlar.

Pərişan zülfü[1] dağıdıb üzünə
Məni də o hala salırsan, inan.
Baxanda gözlərim hər dəfə sənə
Başını aşağı salırsan o an.

Bilirəm, dilində adım əzbərdir,
Bu adı yaşadan sevən ürəkdir.
Bilirsən, dilimdə adın əzbərdir,
Sevən ürəklər zərifdir, kövrəkdir.

Döyünən ürəyin döyüntüsüsən,
Qəlbim döyündükcə səni istəyir.
Aynada əksimin görüntüsüsən,
Gözlərim doymayıb, səni izləyir.

Bəzən olur xəyallara dalırsan,
Qəlbində olanları yaşayırsan.
Bəzən olur xəyallarda azırsan,
Gözlərini gizlədib ağlayırsan.

Yeni doğulan körpətək sən safsan,
Tanrının mənə bəxş etdiyi paysan,
Qışımda qar, payızımda yağışsan,
Gözlərimdə bu dünyaya baxışsan.

Qəlbinin zirvəsinə yazılan ad
Qovuşmasaq, məndən yadigar qalsın.
Çalış bu həyatda ol hər zaman şad,
Həbibi səni fəxrlə yada salsın.

***16.02.2005_Bakı***

[1] **Zülf - tel.**

# DOYA BİLMİR BU QƏLB SƏNTƏK GÖZƏLDƏN

Sən mənimçün həyatda çox əzizsən,
Sən qəlbimdə duyğulu bir dənizsən,
Sən yaddaşdan silinməyən bir izsən,
Unuda bilmir bu könül əzəldən,
Doya bilmir bu qəlb səntək gözəldən.

Hər gecələr qəlb evimə qonaqsan,
İşıqsız dünyamda nurlu çıraqsan,
Kefsiz günlərimdə mənə dayaqsan,
Unuda bilmir bu könül əzəldən,
Doya bilmir bu qəlb səntək gözəldən.

Tez alışsam, məni tez söndürərsən,
Hərdən həyatdan küssəm, güldürərsən,
Ləbinin[1] balı olsam, öpüşərsən,
Unuda bilmir bu könül əzəldən,
Doya bilmir bu qəlb səntək gözəldən.

Qəlbim bir daş olsa, tez əridərsən,
Cismim ölsə, dil ilə dirildərsən,
Gözlərim dərddən yaşarsa, silərsən,
Unuda bilmir bu könül əzəldən,
Doya bilmir bu qəlb səntək gözəldən.

***22.02.2005_Bakı***

[1] **Ləb - dodaq.**

# NAMƏ

Namədə[1] yazdığın acı misralar
Qəlbimdə sağalmaz yaralar açdı.
Əsəbi xətlə yazdığın yazılar
Xəncər yarasıtək qəlbimi sancdı.

İnanmazdım, bu naməni yazarsan,
Məni acı sözlə xatırlayarsan,
Son misranda “unut məni” yazarsan,
Bütöv rəsmi iki yerə bölərsən.

***28.02.2005_Bakı***

**[1] Namə - məktub.**

# QULLUĞUNDA HƏR AN DURUM

Sən şahzadə, mən bir qulun,
Qulluğunda hər an durum.
Pakdır sənin həyat yolun,
Qulluğunda hər an durum.

Bərbəzəyin, boy-buxunun,
Gözəlliyin, ətrin, qoxun,
Yatsan, şirin olsun yuxun,
Qulluğunda hər an durum.

Hər sözümə can demisən,
Canıma ilham vermisən,
Sadə olub sevilmisən,
Qulluğunda hər an durum.

Həbibinin sənin üçün
Qul olmağı şərəflidir.
Boynundakı zümrüd qaşı
Məndən sənə hədiyyədir.

***22.03.2005_Bakı***

# ADI ÇİÇƏK, ÖZÜ GÖYÇƏK

Adın kimi özün də ətirlisən,
Bəzən xəyalpərəst, düşüncəlisən,
Bəzən qəmli, bəzən də sevinclisən,
Sadə qız, adı Çiçək, özü göyçək.

İncə qəlbin hər sözü qəbul etmir,
Xoş dilin yalan danışmağı sevmir,
Böyüklüyün heç vaxt yaddaşdan itmir,
Sadə qız, adı Çiçək, özü göyçək.

Bu həyat yolunda atdığın addım,
Büdrəmək bilməsin, ucaltsın adın.
Həbibiyə, bir dosttək sadiq qaldın,
Sadə qız, adı Çiçək, özü göyçək.

***06.04.2005_Bakı***

# KÖNÜL, KÖNÜLLƏRDƏ YERİN VAR HƏR AN

Sevinc kədərini qaçaraq qovsun,
Könül, könüllərdə yerin var hər an.
Onu səndən uzaqlaşdırıb, yorsun.
Könül, könüllərdə yerin var hər an.

Göz yaşların şəlalətək saf, təmiz,
Fikirlərin bəzən sahilsiz dəniz.
Xəyala dalırsan səssiz-səmirsiz,
Könül, könüllərdə yerin var hər an.

Qısa aylar, uzun illər keçəcək,
Qəlbin kiməsə eşq elan edəcək.
Vaxt gələcək hamı bunu deyəcək,
Könül, könüllərdə yerin var hər an.

Arzum budur, sevib-sevilәsən sən,
Tapasan bu dünyada öz yarını
Hər bir zaman fəxrlə deyəsən sən,
Könül, könüllərdə yerin var hər an.

Ürəyin kövrəkdir, gültək zərifdir,
Söz demək olmayır, tez küsəyəndir.
Dostların da bunu sənə deyərdi,
"Könül, könüllərdə yerin var hər an."

Tənha otağa qapanıb səssizcə,
Dərdini göz yaşınla boşaldardın.
Zəng etsəm danışardın həvəssizcə,
Könül, könüllərdə yerin var hər an.

Bu həyat gözəldir, həm çətin, Könül,
Bəzən də qəfəsdir, sən isə bülbül.
Üzülmə, əziz dost, sevin, həm də gül.
Könül, könüllərdə yerin var hər an.

Həbibinin sənə bir arzusu var,
Həyatda arxadır vəfalı dostlar,
Qoy bu şeir məndən qalsın yadigar,
Könül, könüllərdə yerin var hər an.

***24.12.2005_Bakı***

# YALANDIR

Sən deyirsən gözlərimin nurusan
İnanmıram bu sözlərə, yalandır.
Bəzən də yanımda qəmli durursan,
İnanmıram baxışlara, yalandır.

Bir zənginlə qəlbimi ovutsan da,
İnanmıram o zənglərə, yalandır.
Dərdimi bir bölüşüb, ağlasan da,
İnanmıram göz yaşlara, yalandır.

***19.05.2006_Bakı***

# ÜRƏKDƏN İNANIB...

Ürəkdən inanıb sevirəm dedim,
Gözlərimdən həsrət yaşını sildim.
Sevinc dolu yaşayırdım hər günü,
Hər günün sonu kədərmiş, bilmədim.

Həyat yollarında azdırıb məni,
Sevgimizi sən böldün özgəsilə.
Yaman tez unutdun olub keçəni,
Çətin, adını da gətirəm dilə.

Dilindəki acı kəlmələrinlə
Qəlbimi deşib, göynədən sən oldun.
Saxta təbəssümlü gülüşlərinlə
Məni məndən bezdirən də sən oldun.

Əl uzatdım, əlim qaldı havada,
Daha səni sevmirəm deyib getdin.
Dizlərim qapandı, düşdüm nə hala,
Öldümmü, qaldımmı, bilməyib getdin.

***22.05.2006_Bakı***

# BARIŞMAĞA CAN ATSAM DA, BARIŞMIR

Küsüb məndən yarım, bilmirəm niyə.
Barışmağa can atsam da, barışmır.
Əzab verib, ağrı salır ürəyə,
Barışmağa can atsam da, barışmır.

Gecələr, gündüzlər axan göz yaşı,
Əritməz içimdə qayanı, daşı.
Unuda bilmirəm o gözü, qaşı,
Barışmağa can atsam da, barışmır.

Heç olmasa bircə an bax üzümə,
Bir qulaq as, diqqət yetir sözümə.
Sənsiz dünya dar görsənir gözümə,
Barışmağa can atsam da, barışmır.

Nə yamanmış yarın nazını çəkmək,
Bağçasında qızılgülünü əkmək,
Bu naz deyil, diyəsən məni üzmək,
Barışmağa can atsam da, barışmır.

Gəl barışaq, söz verək, dalaşmayaq,
Hər sözü acı bilib alışmayaq,
Pis günü yada salıb danışmayaq,
Barışmağa can atsam da, barışmır.

Həbibiyəm, qəlbi dərdli şairəm,
Ömürlük boğçası bağlı bir sirrəm,
Bu yar əlindən çətin bir də güləm,
Barışmağa can atsam da, barışmır.

***21.09.2006_Bakı***

# YAŞADIĞIM BU HƏYAT

***İş yoldaşım Aytənin qardaşı***
***Poladın dilindən...***
***(Allah rəhmət eləsin!)***

***Uşaqlıq illəri...***
Bu dünyaya gələn gündən,
Nələr gördü bu gözlərim.
Böyüdükcə günü-gündən,
Kimlər gördü bu gözlərim.

Hər kəs kimi bu dünyaya
Mən də körpə kimi gəldim.
Möhtac idim mən laylaya,
Gah ağladım, gah da güldüm.

***Məktəb illəri...***
O illərin xatirəsi
Yaddaşlardan silinməzdir.
Müəllimin xoş nəfəsi
Göz önündən gedilməzdir.

Hərfləri də düzüb bir-bir
Ata, ana yazdıq bizlər.
Bu məktəbin on bir ildir
Hər yerində vardır izlər.

***Tələbəlik illəri...***
***Dostluq xatirələri...***
Tələbəlik zirvəsinə
Biliyimlə ucaldım mən.
Cəmiyyətdə hörmətimi
Tərbiyəmlə qazandım mən.

Dostluqda olmadım namərd,
Əksinə, oldular namərd.
Hanı əvvəlki dostlarım?
Onlar da oldu mənə dərd.

***Əsgərlik illəri...***
Ana! Vətən! oğlun Polad!
Arxa cəbhə, sən rahat yat.
Düşmənlərə vuracam od,
Qayıdacam sağ-salamat.

***Ailə üzvləri...***
Laylan ilə böyümüşəm,
Şirin dilli anam mənim.
İnamınla böyümüşəm,
Arxam olan atam mənim.

Həm qardaşam, həm arxayam,
Doğma olan üç bacıma.
Əyilməz, vüqarlı dağam,
Onlar olanda yanımda.

***Sonda tək qalan Polad...***
Son zamanlar təkliyə qapanıram,
Həyatdan bezirəm, gah ağlayıram.
Bilmirəm, dərdimin dərmanı nədir,
Ölmək istəyirəm mən... Ölmək... Ölmək...

***28.01.2007_Bakı***

# DARIXMIŞAM

Unuda bilmirəm səni,
Sənsiz yaman darıxmışam.
Sevə bilmirəm özgəni,
Sənsiz, inan, darıxmışam.

Əllərinin təravəti
Əllərimdən heç getməyir.
Öyrəşmişəm bircə sənə,
Sənsiz yaman darıxmışam.

Sənsiz viran olan qəlbim
Ayrılığa tab gətirmir.
Dünyam sənsiz xarabadır,
Getmə, dayan darıxmışam.

Həbibi, haradadır yar?
Ayrı salıb uzun yollar.
Yaşadığım ömür boyu
Sənsiz hər an darıxmışam.

***22.02.2007_Bakı***

# SƏNİN SEVGİN UCBATINDAN

Dalıb yenə xəyallara,
Düşdüm dözülməz hallara,
Düşmən oldum mən dostlara,
Sənin sevgin ucbatından.

Ağlayıram, gözümdə yaş,
Səndən mənə olmaz sirdaş,
Qəlbim sonda oldu bir daş,
Sənin sevgin ucbatından.

Budurmu, mənə hörmətin,
Sədaqətin, düz qiymətin?
Hədər getdi məhəbbətim,
Sənin sevgin ucbatından.

Həbibi sən - yar əlindən,
Zəhərtək acı dilindən,
Ayrı düşdü öz elindən,
Sənin sevgin ucbatından.

***25.12.2007_Bakı***

# NİŞANLI QIZ

***Əsgər yoldaşım***
***Aydəmirovun dilindən...***

Sənsiz darıxıram gecələr yaman,
Qoyma məni darıxam, nişanlı qız.
Bu gözlər yolunu gözlər hər zaman,
Qoyma məni darıxam, nişanlı qız.

Barmağımda üzük səndən xatirə,
Qorxuram ki, ürək səni itirə,
Ehtiyac var mənə olan sevginə,
Qoyma məni darıxam, nişanlı qız.

Məhəbbət dağından axan şəlaləm,
Eşq bağımda ətirli, gözəl laləm,
Darıxanda sən olursan ah-naləm,
Qoyma məni darıxam, nişanlı qız.

Gözəlsən, nazlısan, şirinsən, gülüm,
Bir xahişim var, gəl etmə mənə zülm.
Mən əsgərəm, sən də ki, gülərüzlüm,
Qoyma məni darıxam, nişanlı qız.

***25.08.2008_Qusar***
***(DUX, 309 gün)***

# ANA

Darıxıram yoxluğunu duyunca,
Ayrılıq nə əzab olurmuş, ana!
Darıxanda danışardıq doyunca,
Tənhalıq nə yaman yorurmuş, ana!

Əsgər oğlun əsgərlikdə darıxır,
Həsrət məni gecələr yaman sıxır,
Əldə silah, gözlər yollara baxır,
Gözlərim yaş ilə dolurmuş, ana!

Həftə sonu görüşümə gələndə,
Kədərli üzümdə sevinc güləndə,
Səni görəcəyəm, bunu biləndə,
Qısa görüş qəlbə toxunmuş, ana.

Qayıdar bu oğlun, qayıdar sənin.
Uca zirvələrdən gələr gur səsin.
Həsrətlə gözləyər ana körpəsin,
Dizin üstə laylam oxunmuş, ana!

Dedin: “oğul, vətən də sənin anan!
Borclu olmalısan ona hər bir an!”
Mənsə əsgərliyi bitirən zaman
Oğul fəxri ilə, yüksəlmiş, ana!

***10.09.2008_Qusar***
***(DUX, 293 gün)***

# XƏSTƏYƏM, BU ÜRƏK DARIXIR SƏNSİZ

Gənc əsgərəm, əziyyət nə bilmərəm,
Xəstəyəm, bu ürək darıxır sənsiz.
Hər kəs kimi mən danışıb gülmərəm,
Xəstəyəm, bu ürək darıxır sənsiz.

Bilsən, necə səsinə möhtacam mən,
Yaşadan nəfəsinə möhtacam mən,
Sənsiz yeməkdə yemirəm, acam mən,
Xəstəyəm, bu ürək darıxır sənsiz.

Hər gecələr mənə dualar elə,
Tanrı, bəladan qoru yarı, söylə.
Mənim yarım bənzəyir qızılgülə,
Xəstəyəm, bu ürək darıxır sənsiz.

Tez-tez yada salıb sənli günləri,
Ağlasan öpərdim xumar gözləri,
Telinə taxardım gözəl gülləri,
Xəstəyəm, bu ürək darıxır sənsiz.

Küssən üzülərdim, gülsən gülərdim,
Məndən gizlin dərdin olsa bilərdim,
Can desən, canımı qurban verərdim,
Xəstəyəm, bu ürək darıxır sənsiz.

İstəsən, yağışı yağdırardım mən,
İstəsən, dünyanı dağıdardım mən,
İstəsən, zamanı saxladardım mən,
Xəstəyəm, bu ürək darıxır sənsiz.

İndi o günləri salıb yadıma,
Bircə istəyim, gəl, çat imdadıma,
Gəlib çıxsan, çataram muradıma,
Xəstəyəm, bu ürək darıxır sənsiz.

Bilsəm öləcəm, ölüm qollarında,
Bilsəm gələcəm, bitim yollarında,
Qoru məni hər an dualarınla,
Xəstəyəm, bu ürək darıxır sənsiz.

***15.09.2008_Qusar***
***(DUX, 288 gün)***

# ANA

Dünyada ən əziz nemətsən, ana!
Hər bir an diqqətə layiqsən, ana!
Dünyada dəyərli zinətsən, ana!
Sənsən şeir dünyam, sazım da, ana.

Sənsiz darıxıram yuxularımda,
Sənsən muradım da, arzum da, ana.
Laylalar deyirsən xəyallarımda,
Sənsən baharım da, yazım da, ana.

Günlərim, aylarım darıxdırıcı,
Darıxa-darıxa həm də sıxıcı,
Həsrətindən ruhum olub baxıcı,
Sənsən bəxtim, alın yazım da, ana.

***10.10.2008_S.H.H 004***
***(MOLODOY, 263 gün)***

# YOXSA İNCİMİSƏN HƏMƏNKİ KİMİ?

Dünən mesajını oxudum, gülüm,
Yazdığın mesajın kövrəltdi məni.
Dərdinlə dərdimi toxudun, gülüm,
Səncə incidərmi sevən sevəni?

Niyə telefona cavab vermirsən?
Yoxsa incimisən həmənki kimi?
Mesajda yazmısan məni sevmirsən,
İnan ki, incitdin sevən qəlbimi.

Bilirsən burdakı vəziyyətimi,
Niyə yandırırsan sən bilə-bilə?
Unutma demişəm məhəbbətimi,
Darıxma, gələcək yarın bir ilə.

Alıb telefonu komandirimiz,
Zəng edə bilmədim, məni bağışla.
Döyünür həsrətlə sevən qəlbimiz,
Kaş ki, gələydin sən yağan yağışla.

***31.10.2008_Qusar***
***(MOLODOY, 242 gün)***

# KÜSƏYƏN QIZ

*Tibb bacısı Xəyalə xanıma*

Hərdən mən xəstəyə sən naz edirsən,
Naz edərək vermə qəm, küsəyən qız.
Onsuz da bilirəm, məni sevirsən,
Ürəkdən de sevirəm, küsəyən qız.

Tanrı sənə gözəllik bəxş edəndə,
Saçlarına xırda muncuq düzəndə,
Xumar baxışları süzgün süzəndə,
Yolunda can verərəm, küsəyən qız.

Səni görsəm, ağrı nədir bilmərəm,
Danışmasan, qəmli dursan gülmərəm,
İnan mənə, sənsiz bir an dözmərəm,
Ol hər an qəlbə həmdəm, küsəyən qız.

Yaxınlaşıb halımı soruşanda,
İndi necəsən? deyib danışanda,
Hərdən də qıyqacı göz baxışanda,
Dünyanın xoşbəxtiyəm, küsəyən qız.

Gözün gözəl, özün gözəl bir qızsan,
Bu ağılı başdan alan bir nazsan,
Hərdən mənə gizli mesajlar yazsan,
Dərdi sənlə bölərəm, küsəyən qız.

Özün Qubalısan, yanağın alma,
İndi mən gedirəm, xəyala dalma,
Bu bir xoş xatirə, qəlbinə salma,
Qismət olsa gələcəm, küsəyən qız.

***12.02.2009_S.H.H 004***
***(ZDMB, 138 gün)***

# YENƏ YADIMA DÜŞDÜN SƏN

Göz yumulub yatan zaman,
Yenə yadıma düşdün sən.
Arzulara çatan zaman,
Yenə yadıma düşdün sən.

Tanrı səni yetirəndə,
Gültək bağda bitirəndə,
Birdən-birə itirəndə,
Yenə yadıma düşdün sən.

Daha bəsdir, çıx yadımdan,
Dönmək istərəm andımdan,
Soyadımdan, öz adımdan,
Yenə yadıma düşdün sən.

Əzab dolu xatirələr,
Yazdığın acı sətirlər,
Məni cəlb edən ətirlər,
Yenə yadıma düşdün sən.

***23.02.2009_S.H.H 004***
***(ZDMB, 127 gün)***

# AYRILIQ

Demə, bu sevginin sonu kədərdir,
Haradan bilərdim gələr ayrılıq.
Hər günümüz xoş əhvalla keçərdi,
Təbəssümlü üzdə gülər ayrılıq.

Həsəd aparardı sevənlər bizə,
Dildən-dilə düşmüş saf sevgimizə,
Anam deyərdi, bax gəlinimizə,
Heyif, puç oldu ümidlər, ayrılıq.

Qumral gözlüm, daha bəsdir ağlama,
Səni sevən bu ürəyi dağlama,
Ayrılsaq da, özgəyə bel bağlama,
Dərdimizə həmdəm illər, ayrılıq.

***24.02.2009_S.H.H 004***
***(ZDMB, 126 gün)***

# ƏSGƏR MƏKTUBU

Bulanıb al-qana əsgər paltarım,
Səni sevən bu ürəyim yaralı.
Düşmən gülləsinə tuş gəldi canım,
Əsgər yoldaşım da məndən aralı.

Get-gedə həyata azalır inam,
Arzuları tükənmiş bir insanam.
Gözümün önündə ailəm və sən,
Başım üstə Allah, mən yarıcanam.

Darıxma, sevgilim, bu bir sınaqdır,
Yazdığım bu məktub əsgər məktubu.
Qorxma, sevgilim, Tanrı da dayaqdır,
Keçdiyim bu məktəb əsgər məktəbi.

***03.03.2009_S.H.H 004***
***(ZDMB, 119 gün)***

# ŞAHDAĞ

***(Poliqon / Caqar kəndi)***

Səni yada salıb kövrəldir məni,
Şahdağın soyuğu, yanan isti peç.
Bəzən də gözlərim axtarır səni,
Sonda tapmayınca ömür olur puç.

Həzin musiqisən, eşqim, həm təbim,
Səni unutmaram, könül həmdəmim.
Məni darıxdırır sevincin, qəmin,
Həsrətin qəlbimi doğrayan ülgüc.

Gündüz darıxıb, gecə danışardıq,
Xəyallarda görünüb baxışardıq,
Darıxanda birlikdə ağlaşardıq,
Bəzən dərdi gizlədib deyərdim heç.

Mesajlarda günlərimi yazardın,
Hər günümü mənlə birgə pozardın,
Sevdiyin sözü desəm xoşlanardın,
O an ömrünə bəxş edərdim sevinc.

Darıxma, yar, altmış bir günüm qaldı,
Elə bu günlər bizi ayrı saldı.
Yuxularda qovuşsaq da, xəyaldır,
Bunlar da hərdən bizə gəlir gülünc.

Baxdıqca Şahdağın mənzərəsinə,
Başqa bir aləmdir, lap zirvəsinə,
Eh, ehtiyac var isti nəfəsinə,
Yoxluğun məni qoymur oturam dinc.

***30.04.2009_Qusar***
***(DMB, 61 gün)***

# ŞEİR YAZMAQ İSTƏYİRƏM

Sənin xumar gözlərindən,
Mənə dolu sözlərindən,
Ətir saçan tellərindən,
Şeir yazmaq istəyirəm.

Ərköyün xasiyyətindən,
Duzlu, şirin söhbətindən,
Əbədi məhəbbətindən,
Şeir yazmaq istəyirəm.

Əsgərliyə gedən zaman
Kövrəlib ağlamağından,
Bir ay qalmış ayrılıqdan,
Şeir yazmaq istəyirəm.

Mesajlarda yazdığın söz:
“Allah köməyin olsun, döz,
Qəlbim sənsiz yanar bir köz”,
Şeir yazmaq istəyirəm.

Sənin o naz-qəmzənə mən
Vurulmuşam lap əzəldən.
İnan, gülüm, sən gözəldən
Şeir yazmaq istəyirəm.

Darıxıram gecələri,
Tənha gəzib küçələri,
Yada salıb keçənləri,
Şeir yazmaq istəyirəm.

On bir ayın səbrinə bax,
Zaman boğur məni vallah,
Kömək ol yaradan Allah,
Şeir yazmaq istəyirəm.

Ay nuruna baxan gözlər
Darıxıb yolunu gözlər.
Dan açılar, itər izlər,
Şeir yazmaq istəyirəm.

Bu, mənəm, əsgər Bayramov.
Pis fikiri beyindən qov,
Günlərim nə vaxt keçər, of!
Şeir yazmaq istəyirəm.

***31.05.2009_S.H.H 004***
***(DMB, 30 gün)***

# GÜLÜŞLƏRİN

*(Məzuniyyətdə olarkən)*

Göy üzünü bulud alıb tutanda,
Gözlər gözləri görüb utananda,
Ay da bizlə birgə sonda batanda,
Bil, qorxutmağa qoymaz gülüşlərin.

Narın yağan yağışların səsində,
Görüş yeri, o ağac kölgəsində,
Gəzərdik doymadan eşq həvəsilə,
Bil, ayrılmağa qoymaz gülüşlərin.

Hər gecələr gizlincə yazışardıq,
Gələcək toyumuzdan danışardıq,
Hərdən dalaşıb, hərdən barışardıq,
Bil, ağlamağa qoymaz gülüşlərin.

Sən çıxdın qarşıma ilk gəlişimdə,
Bil, sarsılmağa qoymaz gülüşlərin.
Sən də yola saldın son gedişimdə,
Bil, sıxılmağa qoymaz gülüşlərin.

İndi mən gedirəm, ağlama, yarım,
Tezliklə gələcəm, darıxma, yarım.
Həbibiyə dua et, amma, yarım,
Bil, darıxmağa qoymaz gülüşlərin.

***13.06.2009_Bakı***
***(DED, 17 gün)***

# GÜL FİDANI

Gül fidanı, bəxtimin gülüsən sən,
Nə tez mehin ətrilə soldun belə?
Hey nazlanıb, ağlayıb, gülürsən sən,
Nəğmələr olub düşdün dildən-dilə.

Gül fidanı, ətirli bir çiçəksən,
Eşq bağımda birdənəsən, sən təksən.
Yağışam, ruhuna qidayam, gülüm,
Bil, həsrətindən döyünən ürəksən,

Gül fidanı, adın kimi gözəlsən,
Gül bir yana, qadın kimi gözəlsən.
Həbibi, hər an şad ol gözəllikdən,
Fidanım, sən də gül kimi gözəlsən.

***18.10.2009_Bakı***

# SƏN MƏNİM ÜÇÜN...

*(Mənsur şeir)*

Sən mənim üçün tələbəlik illərindən bir xatirə...
Sən mənim üçün saf-səmimi, ülvi məhəbbət...
Sən mənim üçün yazdığım cavabsız mesajlar...
Sən mənim üçün "Gül fidanı..."
Sən mənim üçün qısa metrajlı bir film...
Sən mənim üçün telefon zəngi...
Sən mənim üçün gələcək can yoldaşı...
Sən mənim üçün gələcək iş yoldaşı...
Sən mənim üçün gələcək səfər yoldaşı...
Sən mənim üçün sonda ayrılıq payı...
Sən mənim üçün sonda dərd dağı...
Sən mənim üçün həsrətdən ağlayan göz yaşı...
Sən mənim üçün tufanlı bir dəniz...
Sən mənim üçün ürəyin son nəbzi!

***25.10.2009_Bakı***

# GÖZƏLSƏN SƏN

Görməsədə bu gözlərim,
Bil, gözümdə gözəlsən sən.
Danışdığın hər söhbətin
Hər sözündə gözəlsən sən.

Yaşca böyük olsan belə,
Hər yaşında gözəlsən sən.
Yaraşıqsan bizim elə,
Dan şehində gözəlsən sən.

Baxışların məna dolu,
Göz baxdıqca gözəlsən sən.
Uğurludur həyat yolu,
Yol boyunca gözəlsən sən.

Şəfa verib bu ömrümə
Şəfa kimi gözəlsən sən.
Hərdən yansam öz külümə,
Vəfa kimi gözəlsən sən.

Həbibinin ürəyində,
Həyatında gözəlsən sən.
Səni sevən bu qəlbində,
Hər anında gözəlsən sən.

***06.12.2009_Bakı***

# GÖZLƏRİNDƏ SEVGİ VARDI

***Can Dost!***
***Firəngiz xanıma***

Mən səni gördüyüm o gün,
Gözlərində sevgi vardı.
Oğrun-oğrun, hərdən süzgün,
Gözlərində sevgi vardı.

Danışığın şirin-şirin,
Ürəyində nədir sirrin?
Tezliklə olasan gəlin,
Gözlərində sevgi vardı.

Gözələ çatdır xəbəri,
Gözəlliyi dil əzbəri,
Nə gözəlmiş o gözləri,
Gözlərində sevgi vardı.

Saf məhəbbət sənin olsun,
Tezliklə toruna salsın,
Ağ atlı oğlan qaçırtsın,
Gözlərində sevgi vardı.

Həbibinin bu sözləri,
Gözüntək baxan gözləri,
Tanrı qorusun bizləri,
Gözlərində sevgi vardı.

***14.12.2009_Bakı***

# İÇİMDƏ BİR QORXU VAR, YAR QORXUSU

Yaman qoruxuram, yaman bu gecə,
İçimdə bir qorxu var, yar qorxusu.
İsti otağa qapanıb səssizcə,
İçimdə bir qorxu var, yar qorxusu.

Nə olar, aç telefonu, cavab ver,
Bu qorxulu canıma bir savab ver.
Mənimtək qorxu içindədir göy, yer,
İçimdə bir qorxu var, yar qorxusu.

Yazdığın son mesajlara baxdıqca,
Hər mesajı oxuyub ağladıqca,
Gözlər yumulub xəyala daldıqca,
İçimdə bir qorxu var, yar qorxusu.

Bu an birdən qulağıma səs gəldi,
Elə bil otağıma bir kəs gəldi,
Aman Allah, bu gün yenə nəs gəldi,
İçimdə bir qorxu var, yar qorxusu.

Zaman durmadan irəli getdikcə,
Yar gələr deyə kölgəm izlədikcə,
Eh, çırpınan ürək hey gözlədikcə,
İçimdə bir qorxu var, yar qorxusu.

***24.02.2010_Bakı***

# KÜLƏK

Bu axşam nə sərin bir külək əsir,
Lap məni keçmişə qaytarır səsi.
Birdən qəzəblənir, birdən də kəsir,
Oyadır sevgiyə məndə həvəsi.

Bu an sevmək istəyir kövrək ürək,
Sevdinsə, sevgini qorumaq gərək,
Amma sevməyib yenə üzülərək,
Ürəyin sonda tutur ah-naləsi.

Həbibi, bu qədər ürəyi yorma,
Sevgi bir həvəsdir, ona yalvarma,
Çalış hər gözələ tez də bağlanma,
Bax, külək də kəsdi, itdi kölgəsi.

***23.04.2010_Bakı***

# MƏNİM QƏBİR DAŞIM

Bir arzum var sevənlərdən,
Unutmayın sizlər məni.
Gələndə də ürəklərdən
Qoparıb atmayın məni.

Mən öləndə qəbir daşım
Doğma olsun sizlər üçün.
Şəkildəki gözüm, qaşım
Doğma olsun sizlər üçün.

Mən öləndə qurulmasın
Təmtəraqlı mərasimlər.
Axar çaylar durulmasın
Dərdimə yansa da kimlər.

Könül verdiyim qızlar da
Könüldən yad etsin məni.
Oxunan xoş avazlarda
Yaşatsınlar mən sevəni.

Yazılan hər şeirlərim
Dilinizdən düşməz olsun.
Məni hər an sevənlərim
Baxıb yanan düşmən olsun.

Çox ağlayıb qəbir üstə
Məni də siz incitməyin.
Göz yaş töksə püstə-püstə
Sizsiz qəlbi kövrəltməyin.

Mənim üçün saf bir sevgi
Bu həyatda əzab oldu.
Sonda da verdi bir itki
Verilərək, ömür soldu.

Həbibiyəm, bu dünyadan
Sevdim, məhəbbətsiz getdim.
Ölsəm də, çıxmadım yaddan,
Doymadım, söhbətsiz getdim.

***02.05.2010_Bakı***

# MƏN NİYƏ SEVƏ BİLMİRƏM?

Tanrı mənə bu əzabı
Niyə verirsən, bilmirəm.
Görən nədir məndəki səhv
Mən niyə sevə bilmirəm?

Baxıb gəzən sevənlərə,
Alovlanan o gözlərə,
Sonda döyüb bu dizlərə,
Mən niyə sevə bilmirəm?

Məhəbbətim yanar bir daş,
Gözlərimdən axan sel, yaş,
Mən də sevə biləydim kaş...
Mən niyə sevə bilmirəm?

Ürəyimin sarı simi,
Yarama toxunan kimi,
Köks ötürüb, çəkib qəmi,
Mən niyə sevə bilmirəm?

Xəstə oldum saf eşq üçün,
Sonda qalmadı heç gücüm,
Dərd çəkməkdən yandı içim,
Mən niyə sevə bilmirəm?

Axtardığım gözəl yarım,
Sənsən ürəyimdə ağrım,
Həbibiyəm, yandı bağrım,
Mən niyə sevə bilmirəm?

***12.05.2010_Bakı***

# GÖZLƏDİK YOLUNU

***Ana və uşaqlarının dilindən...***

Gözlədik yolunu hər gün, hər saat,
Aylar illər oldu, gəlib çıxmadın.
Nə fani dünyadır, nə fani həyat,
Bizi yada salıb, geri baxmadın.

İndi böyüyübdür qızın, həm oğlun,
Təklik əlindən bu can olub yorğun,
Ömrün baharını bürüyüb çovğun,
Sən isə isidib əllə sıxmadın.

Gəlin köçüb bu ocağa gələndə,
Bu ocağı doğma evim bilәndә,
Sən isə məni ağladıb güləndə,
Sonda könlümü alıb utanmadın.

Uşaqlar da "Ata!", "Ata!" söyləyir,
Gecələr də yata-yata söyləyir,
Bilsən yollarını necə gözləyir,
Ay insafsız, onlartək darıxmadın?

Allahın o quru bir zəngini də
Etmədin ki, görəm saf sevgini də.
Uşaq ata görəndə dost evində,
Səndə ki yad eldən heç yığışmadın.

Yazdım bu məktubu gözü yaş ilə,
Oğlun, qızın olan bir sirdaş ilə,
Gedişin bərabər ağaran telə,
Həsrətindən yandıq, maraqlanmadın.

***02.09.2010_Bakı***

# VURULDUM

***Ləman xanım Cavadzadəyə***

Vuruldum o qara, gözəl gözlərə,
Ömrümün ən gözəl oğlan çağında.
Dərdimi, sirrimi açıb sizlərə,
Özümü hiss edib bir eşq bağında.

Mən sizə könlümü açandan bəri,
Tanrıdan istəyim görüm sizləri,
Sıxıb əlinizi, öpsəm gözləri,
İtirsəm, gəzərəm eşq çırağında.

Baxdıqca o gözəl camalınıza,
Qovuşa bilsəydim xəyalınıza,
Həmdəminiz də olub halınıza,
Yansanız, yanaram eşq ocağında.

Yazdığınız hər bir sözdə məna var,
Sözləriniz bu qəlbimdə yaşayar,
Bircə sizi yanımda görsəydim, yar,
Sizinlə yatardım eşq yatağında.

Deyirlər bu dünya gözəldir siztək,
Eşqin yollarında qoyulan iztək,
Şəkildə mənalı baxan o göztək,
Hər gecə baxardım eşq otağında.

Ömrüm bir ağacdır, yarpağı sizlər,
Küssəniz, yas tutub ağlayar gözlər,
Həbibi, nə vaxtsa qovuşsa izlər,
Yarına toy-büsat qur eşq dağında.

***24.09.2010_Bakı***

# BULAQ

Bir bulaq var gözü yaşlı,
Ağladıqca qəlbim ağlar.
Xoş simalı, gözəl qaşlı,
Onu görən könül bağlar.

Başına yığılan kimi,
Tez unudar dərdi, qəmi.
Gözəl olar şux görkəmi,
Yolunda can verər dağlar.

Küsənlərin görüş yeri,
Sevənlərin öpüş yeri,
İgidlərin döyüş yeri,
Ürək orda sirrin saxlar.

Qar yağanda donar buztək,
Naz eləyər hərdən qıztək,
Utansa qızarar üztək,
Bütün el onu soraqlar.

Vətən, torpaq bir də ki, sən
Bir bağlılıq var əzəldən.
Doymadan su içib əldən,
Qarşında əyilər başlar.

Həbibi, bu eşq bulağı,
İç doyunca, yaz bir şeir.
Sonra yaxın tut qulağı,
Gör ürəyi necə vurar.

***07.10.2010_Bakı***



# TARİXSİZ ŞEİRLƏR

# HƏR BİRİSİ

Sənin gözəl gözlərinin
Hər birisi bir dünyadır.
Sənin şirin sözlərinin
Hər kəlməsi bir mənadır.

Düşündüyün fikirlərin
Hər birisi bir sualdır.
Çəkdiyin ah-nalələrin
Hər birisi bir xəyaldır.

# KÖVRƏLDİR

Rəsmin xəyalımda canlı bir portret,
Canlandıqca məni yaman kövrəldir.
Nə olar küssən də arada gəl-get,
Bizi ayrı salan zaman kövrəldir.

Hüsnünə[1] yaraşan nazlı gülüşün,
Gözlərim önündə bəzən canlanır.
Dadı damağımda qalan öpüşün,
Məni o illərçün, inan, kövrəldir.

[1] **Hüsn - sima.**

# HAVAM DA SƏN, QİDAM DA SƏN

Sən torpaqsan, mən bir güləm,
Havam da sən, qidam da sən.
Olmasan sənsiz ölərəm,
Havam da sən, qidam da sən.

Susuzluğa dözsəm belə,
Sənsizliyə dözmərəm mən.
Sonda gəzsəm əldən-ələ,
Havam da sən, qidam da sən.

Qida olub böyütmüsən,
Fərəhimlə öyünmüsən,
Sevilmişəm, sevinmisən,
Havam da sən, qidam da sən.

# DAR GÜNÜMDƏ DAYAĞIMSAN

***Tələbə dostum Muradın dilindən...***

Aylı gecə, nurlu gündüz,
Qəlbimdə sayrışan ulduz,
Xəyalımda qonağımsan,
Dar günümdə dayağımsan.

Süfrəmin duzu, çörəyi,
Safdır döyünən ürəyi,
Sən sönməyən çırağımsan,
Dar günümdə dayağımsan.

Buludun yağışısan sən,
Yağışın naxışısan sən,
Yağa-yağa marağımsan,
Dar günümdə dayağımsan.

Dənizin ləpələrisən,
Dalğalarla sən gəlirsən.
Sahilimdə ocağımsan,
Dar günümdə dayağımsan.

# NAZ ELƏ

Naz elə, ey nazlı nigar,
Qoyma məni nazsız qalım.
Görməsəm xoş gülüşünü,
Xarab olar bu şux halım.

Sənsiz qalan bu qəlb yanır,
Qoyma məni sənsiz qalım.
Yumanda xumar gözünü,
Pərişan olur xəyalım.

# MƏHƏBBƏT

Bu qoca dünyada biztək insana
Ömür verib yaşadandır məhəbbət.
Bu qoca dünyada qıza, oğlana
Əmrin verib aldadandır, məhəbbət.

Can, can deyib çağıran o dillərin,
Şux qaməti qucaqlayan əllərin,
Ətir saçan gözəl-göyçək güllərin,
Təsirindən yaranandır, məhəbbət.

Bəzən sevindirib, bəzən ağladan,
Ürək qapısını üzə bağlayan,
Sevənləri xəyallara daldıran,
Ağılı başdan alandır, məhəbbət.

## XƏYALLAR

Baxdıqca rəsminə, ey nazlı nigar,
Baxan gözlər doymayır səndən, ey yar.
Göz yol çəkir, tez yaranır xəyallar,
Xəyallar məni uzağa aparar.

Xəyallar yetirir məni arzuma,
Yarımla mənim birgə olmağıma,
Aşiqlər bağında oturmağıma,
Yarımla doyunca danışmağıma.

# İTİRDİM QIZI...

Mən yolun sağında, sən də solunda,
Hicran hasarıdır ayıran bizi.
Bu qəmli məhəbbət yenə sonunda,
İtirdi yollarında qalan izi.

Neçə illər gəlişini gözlədim,
Su oldum, od oldum, dərddən əzildim,
Kor oldum, kar oldum, sonda düzəldim,
Amma ayıldım ki, itirdim qızı...

# ƏLVİDA, HƏMDƏMİM OLAN DOSTLARIM

Dərdimi kağıza, yazan qələmim,
İlhamımdan coşub-daşan qələmim,
Dərdimdən alışıb-yanan qələmim,
Əlvida, həmdəmim olan dostlarım.

Məni xəyala daldıran xəyalım,
Gecələr mənimlə olan xəyalım,
Gözümdən yaşı axıdan xəyalım,
Əlvida, həmdəmim olan dostlarım.

# ŞÜKÜR SƏNƏ

Ayrılmışıq tənhalıqdan,
Oyanmışıq yuxulardan,
Şükür sənə, ulu Tanrı,
Can qurtarıb bu bəladan.

Dərdimizdən yağan yağış
Yağmaq istəmir bir daha.
Dərdimizdən yanan günəş
Yanmaq istəmir bir daha.

# TELEFON ZƏNGİ

Telefon zəngilə yaranmış sevgi
Telefon zəngilə də sona yetdi.
Səni bilməyirəm nə hiss keçirdin
Sanki bu ömürdən neçə il getdi.

Bir ay keçsə də, yenə yaddaşımdan,
Sevgi tərifitək silinməmisən.
Tək-tənhayam mən on səkkiz yaşımda,
Elə bil ömrümdən heç getməmisən.

# GÖRÜŞ YERİ

Hərdən o yerlərdən keçəndə, gülüm,
Tam sağalmaz yaram qana boyanır.
Yadıma düşəndə sənli illərim,
Qəlbim o günlərçün alışıb-yanır.

Nə gözəlmiş birgə keçən o günlər,
İndi o günlərdən yoxdur bir xəbər.
Xatirətək yazılan son sətirlər
İndi bir gözdağı, birdə ki, kədər.

Görüş yerimizə ad da seçmişdik,
Bizimçün bir dünya idi o yerlər.
Yadındamı, iki ay da küsmüşdük,
Barışanda açıldı bağlı sirlər.

Xoşbəxtdik o günlərin zamanında,
Bizim də öz görüş yerimiz vardır.
Görüş vaxtı saat bir tamamında,
Geciksəydin, Həbibi darıxardı.

# İŞ OTAĞIM

İş otağım olan bu fərqli otaq
Bir qapı, bir pəncərə, bir də ki, sən.
Gəlirsən xəyalımda bura qonaq,
Hərdən itib, hərdən də görünürsən.

Axtarır gözüm səni sağda-solda,
Hərdən qapıda, pəncərədə, yolda.
Ümidlə gəzirəm səni, sevgilim,
Amma axtarışım vermir bir fayda.

Adın otağımın divarlarında,
Elə yazılıb ki, pozulmaq bilmir.
Bir məna var sənin baxışlarında,
Sənin baxışların gözümdən itmir.

Gözəl əllər mənə gəl-gəl deyəndə,
Körpətək sevinib, tez-tez gəlirəm.
Yaxınlaşdıqca səni görməyəndə,
Körpətək ağlayıb, lap üzülürəm.

# DÜZ ÜÇ AYDIR

Düz üç aydır səni görmür bu gözlər,
Əvəzində hər axşam zəngləşirik.
Bu gözlər tezliklə yolunu gözlər,
Darıxma, tezliklə görüşəcəyik.

Hər axşam işimdən yorğun gələndə,
Ruhumun qidası səsindir mənim.
Ürəkdən danışıb, deyib, güləndə,
Sonda dalaşmaq həvəsindir sənin.

Birinci sözümüz salam, necəsən?
Telefonu niyə gec götürürsən?
Eh, yenə başlama deyib, gülürsən,
Məni həsrətinlə yenə üzürsən.

Doyunca danışıb sağollaşanda,
Yenə də təzədən biz danışardıq.
Eşqin təsirindən qəlb alışanda,
Xəyala dalıb guya qovuşardıq.

Bax beləcə keçirdi hər günümüz,
Amma bir arzu ilə yaşayırdıq.
Tezliklə qovuşub gülər üzümüz,
Elə o günlər üçün darıxardıq.

# BİRCƏ SƏN YOXSAN, ƏZİZİM

Gözəl bir qış axşamında,
Oturmuşam otağımda,
Siqaret də damağımda,
Bircə sən yoxsan, əzizim.

Yazan qələm, coşan ilham
Mənimlədir indi, bu an.
Otağı bürüyüb duman,
Bircə sən yoxsan, əzizim.

Bu axşamın qonağıdır
Divardan asılan rəsmin.
Bir də oxunan ağıdır,
Bircə sən yoxsan, əzizim.

Gedişinlə izin qaldı,
Baxışınla gözün qaldı,
Bir də quru sözün qaldı,
Bircə sən yoxsan, əzizim.

# OLSAM...

Sən ulu torpaqsan, mən də ki, insan.
Ölsəm, məni qoynuna alarmısan?
Sevənlər göz yaşı töksə dərdimdən,
Məzarımı əlinlə sıxarmısan?

Mən qəlbinə yaxın bir şair olsam,
Yazdığım şeiri oxuyarmısan?
Gözlərində göz yaşı olub dolsam,
Gözündən göz yaşı axıdarmısan?

Otağında sənə baxan şəkiltək
Gecələr sənə baxsam baxarmısan?
Bir il qədər uzun olan həsrəttək,
Arada darıxsan axtararmısan?

Aynaya baxanda əksin olsam mən,
Ənbər[1] ləbinlə[2] məni öpərmisən?
Fırçamla gözəl bir rəsmini çəksəm,
Onu dahi əsərtək sevərmisən?

Bir dost kimi sənə bir sirr söyləsəm,
O sirri qəlbində gizləyərmisən?
Bədahətən sənə şeir söyləsəm,
Sonacan oturub dinləyərmisən?

Qəlb evimdən incik, küsülü getsən,
Geri dönüb qapımı açarmısan?
Qaranlıq gecənin çırağısan sən,
Hərdən işıq saç desəm, saçarmısan?

Günəş olub şüamı sənə saçsam,
Sən şüalarımla qızınarmısan?
Həbibiyəm, yağıştək yerə yağsam,
Sən yağışlarımla islanarmısan?

[1] **Ənbər - ətiri.**
[2] **Ləb - dodaq.**

# TƏBİƏT BAĞÇASI

Bu gün təbiət yenə öz işində,
Hər zaman, hər bir an öz keşiyində.
Təbiət bağçası gözəl dünyadır,
Sakini güldür, çiçəkdir, ağacdır.
Torpaq öz nəfəsilə qida verir,
Gül, çiçək, ağac ona dua edir.
Qonağı çox olur gözəl bağçanın,
Hətta qərib eldən gəlir qonağı.
Külək də, yağış da qonağı olur,
Gəlişilə gedişi unudulmur.
Qapısı həmişə açıqdır üzə,
Buluda, çənə, aya, həm günəşə.
Dörd fəsildə gözəl olur libası,
Elçilər əlindən dolu qapısı.

# PAK ADINDIR MƏNİ YAŞADAN, ANA!

Ana! Bu ad nə qədər saf və təmiz,
Tənhalıq boğar məni olsam sənsiz.
Bu dərdli həyatda sən yaşa dərdsiz,
Pak adındır məni yaşadan, ana!

Çətinə düşsəm adını çəkərdim,
Ana, sağ əlin başıma deyərdim,
Asanlıqla işimi bitirərdim,
Pak adındır məni yaşadan, ana!

Min bir əzab ilə sən yana-yana,
Dərdlərimə əlac oldun, ay ana.
Xəstə oldum, dərman oldun bu cana,
Pak adındır məni yaşadan, ana!

Verdiyin zəhməti qaytarmaq çətin,
Qocalsan da, gözəl olar qamətin.
Ürəyintək təmizdir pak əməlin,
Pak adındır məni yaşadan, ana!

Arzum budur sən də çox yaşayasan,
Həbibini şairtək tanıyasan.
O illərimə sən həmdəm olasan,
Pak adındır məni yaşadan, ana!

# QIZ QAÇIRTMAQ

Əzəldən var qız qaçırtmaq,
Qızı evdən oğurlamaq,
Neçə günlərlə saxlamaq,
Sonda da razılıq almaq.

Kəndimizdə var bu adət,
Babalardan bir əmanət,
Oğlanda varsa məhəbbət,
Sonda da olur səadət.

Bir gün bibioğlu Faiq,
Dostları, birdə ki, Natiq,
Yığışdılar üçüncü gün,
İşləri gedirdi düzgün.

Qara maşın, sıfır on bir,
Vaxtda ki, yanvar ayı, bir.
Nömrə sıfır otuz səkkiz,
Axşam üstü saat səkkiz.

Allah, dəyməsin göz-nəzər
Deyən dostlar sakit gəzər.
Elə ki, qızı gördülər,
Tez maşına mindirdilər.

O gündən qız qaçırtdılar,
Həmin yerdən də qaçdılar,
Muğanlıya apardılar,
Sevinclərindən çaşdılar.

Faiq, Gövhər oldu xoşbəxt,
Yaxın olsun onlara bəxt,
Bu, tale yazan bir qismət,
Yaşatsın sizi məhəbbət.

# RƏHMƏTLİK İSMAYIL ƏMİM

*Rəhmətlik İsmayıl əmimə ithaf olunub*
*(Allah rəhmət eləsin!)*

Xəbər çatdı ölüb əmim,
Xəstə-xəstə artdı qəmim,
Yarama duz səpdi dərdim,
Rəhmətlik İsmayıl əmim.

Öz gülləsi dəydi cana,
Boyandı qırmızı qana,
Son nəfəsdə dedi: - "Ana!"
Rəhmətlik İsmayıl əmim.

Sağlığında çox deyərdi,
Bu dünya gəldi-gedərdi,
Dərdi araqla bölərdi,
Rəhmətlik İsmayıl əmim.

Əmi kimi əmi oldu,
Dərdi gizlədərək soldu,
Küsgünlük onu çox yordu,
Rəhmətlik İsmayıl əmim.

Var-dövləti olan zaman,
Düşmən də dost oldu o an.
Dar günündə təkcə qalan,
Rəhmətlik İsmayıl əmim.

Baş daşında yazılanlar,
Xatirətək anılanlar,
Burda var vaxtsız yatanlar,
Rəhmətlik İsmayıl əmim.

Elimizin can-ciyəri,
Dostlarla vuran ürəyi,
Toyda, yasda var əməyi,
Rəhmətlik İsmayıl əmim.

Axar sular dondu bir an.
Yoxluğundan neçə insan
Yas tutub ağladı inan,
Rəhmətlik İsmayıl əmim.

Ata, ana, bacı, qardaş,
Ağladı göz, yandı qardaş.
Yeri behişt, candı qardaş,
Rəhmətlik İsmayıl əmim.

Ömrünün əlli yaşında,
El-oba dərdi başında,
Yazıldı məzar daşında,
“Rəhmətlik İsmayıl əmim.”

Həbibi qəm qalasıdır,
Bunlardan dərs alasıdır.
Dünyada kim qalasıdır?
Rəhmətlik İsmayıl əmim!

# ŞAİR TƏBİƏTLİ

*(Mənzum şeir)*

Şair təbiətli bir gözəl insan,
Dənizi seyr edib gəzirdi yaman.
Ətraf səssiz-səmirsiz, aydın səma,
Günəş şəfəq saçır, şairsə amma
Yenə də nə gülüb, nə danışırdı,
Onun gözlərində bir həsrət vardır.
Həsrət onu çox üzürdü get-gedə,
Birdən eşitdi səs gəlir dənizdən.
Tez boylandı dənizin sağ-soluna,
Sən demə dənizdə batan bir sona.
Şair tez cumub dənizin içinə,
Qızı çıxartdı dəniz sahilinə.
Dalğalar sahildə qıza dəydikcə,
Şair dərd çəkirdi qız can verincə...



# BAYATILAR

***

Əzizinəm, bu da mən,
Ol atamla quda sən.
Əgər qızı incitsəm,
Onda məni buda sən.

***

Əzizinəm, a dağlar,
Yasında duman ağlar.
Köksünə qəm dolanda,
Şair də dərddən ağlar.

***

Əzizinəm, gözəllər,
Qəlbimi hey üzərlər.
Birinə söz deyəndə,
Tezcə məndən küsərlər.

***

Ox atdım yara dəydi,
Ağrısı cana dəydi,
Gözlərim kor olaydı,
Hədəfim sana dəydi.

***

Əzizinəm, nazlı yar,
Gəl yanıma, nazlı yar.
Göz-qaşına vurğunam,
Naz eləmə, nazlı yar.

***

Əzizinəm, sən Leyli,
Bil, mən Məcnun, sən Leyli.
Bilirsən ki, sevirəm,
Gəzmə məndən gileyli.

***

Əzizinəm, ey vətən,
Adın kimi gözəlsən.
Dil dodağa xar[1] olar,
Adın düşsə dilimdən.

***

Əzizinəm, ləblərə[2],
Saf olan o qəlblərə,
Qəlbin aynası olan,
Süzgün baxan gözlərə.

---

[1] **Xar - tikan.**
[2] **Ləb - dodaq.**



# NATAMAM SƏTİRLƏR...

***

Bağlayıb əlimi qalın zəncirlə
Dağlara, daşlara çırpdı məhəbbət.
Min bir əzablarla, min bir fikirlə
Yəhərsiz at ilə çapdı məhəbbət.

***

Əlini ver, ürəyini verməsən də,
Sirrini ver, bu qəlbini verməsən də...

***

Mən ölmüşəm, qəbrim üstə gözəllərin göz yaşı var.
Mən ölmüşəm, qəbrim üstə sevənlərin göz yaşı var.

***

Kefsiz görüb dərdini soruşanda
Çalışıb dərdini gizlədirdin sən.
Gözlər gözlərlə odlu baxışanda
Çalışıb sevgini gizlədirdin sən.

***

Mən niyə ölməyib bu günü gördüm, Allahım?!
Öz şeirimlə sevgimə cavab yazdı yarım.

***

Əl uzatdıq, əllər qovuşmaz oldu,
Halımızı dillər soruşmaz oldu.
Küsülü qaldıq illərlə bir sözdən,
Ürək alışaraq darıxmaz oldu.

***

Ürəyimə üsyan edib
Səni məndən alanlar var.
Qoyma yarım, məni səndən,
Səni məndən ayıralar.

***

Gəzdiyimiz yolları buz bağladı,
Gecə-gündüz həsrət bizi dağladı,
Gözlərimiz bizdən gizli ağladı,
Bu dərdlərə dözərmi sevən ürək?
Sevgisiz yaşamaq, de, nəyə gərək?!

***

Dağ kimi əyilməz vüqarım ata!
Sən oldun həyatda dayağım, ata.

***02.04.2009_Qusar***
***(DMB, 89 gün)***

***

Könül, könlün bu qədər kövrək, niyə?
Sevgidir könlünü kövrəldən yenə?
Eşq, məhəbbət sandığımız bir varlıq
Səni də öz toruna salmış belə.

***

Durub yenə önündə mən,
Gözlərinə bir sualla baxardım...

***

Sənin mənə olan sevgin
Gözlərində sətir-sətir yazılıb.

***

Soyuq baxışların buztək dondurdu məni.

***

Sənin də, mənim də sevən qəlbimiz,
Hər ikisi eyni dərdli, sevgilim.

***

Hər günümüz gözəl idi,
Sevə-sevə yaşayırdıq.
Hər günümüz də tam fərqli,
Sevə-sevə qarşılardıq.
Hər fikrimiz bir fikirli,
Bölə-bölə paylaşardıq.
Əvvəl dostluq, sonra sevgi,
Hər ikisi burda bitdi.

***

Allahın yaratdığı gözəl bəndə,
Allahı sev, ona yaxın ol sən də.

***

Bu qəlbim yenə dindi,
Sənə eşq elan etdi.

***

Alıb sevincimi kədərləndirdin,
Gözüyaşlı qoydun sevinclərimi.

***

Gəl xəyallarda gəzək səninlə dəniz sahilində.

***

Pərişan ulduzlar göyün yaraşığı,
Buluddan yağan yağış sevgi yağışı.

***

Sevənlər arasını vuran - əğyar!
Bu zaman gözlərdən yaş axıb ağlar.

***

Eşqin yollarında gəzirəm sənsiz,
Duyub yoxluğunu, bezirəm sənsiz.
Qaranlıq gecələr, tənha küçələr,
Çətin bu həyatda gülərəm sənsiz.

***

Yenə sənin xəyalınla,
Ey yar, sənin sorağınla,
Düşüb şəhərin canına,
Soruşdum səni şəhərdən.

***

Səs-sorağı nədən gəlmir?
Danışan dil niyə dinmir?
Gülərüzlüm daha gülmür,
Dərdi nədir, bu qəlb bilmir.

***

Bir qız, bir oğlan
Görüşdülər bir zaman.
Həvəslə görüşdükləri məkan
Sonda oldu pərişan...

***

Hərbi bir kişilik məktəbidir, bil,
Hərbidə darıxsan, hərdən ağla, gül.
Darıxma, sevgilim, nədir ki, bir il,
Ömrün bir payızı, bir də baharı.

***04.04.2009_Qusar***
***(DMB, 87 gün)***

***

Ağlama, gözlərinə yaş yaraşmaz,
Döyünən ürək sevgisiz çırpınmaz,

***

Tənhalığa boyun əymək yaraşmaz,
Sənin kimi dost heç yerdə tapılmaz.

***

Sənin xəyalında canlanıram mən,
Sənin gözlərində ağlayıram mən.

***

Sən doğmuş günəşsən,
Mən isə tənha ay.

***

Çiynimdə var dərdlə dolu ağır yük,
Dözməyir bu dərdə çiyinlər bəzən.

***

Ümid verib məni yaşadan yarım,
Acı sözlə arzulara son qoydun!

***

Pak ürəyi iki böldü ox olub,
Etdiyi əməllə ömrüm azaldı.
Zəhərtək badəmdə qəlbimə dolub,
Ürəyimdə olan sevgini aldı.

***

Gözlərində gözlər eynək olsaydı,
Kədəri yox, sevinci çox görərdi.

***

Yar yuxudan oyananda,
Ətraf nura boyananda,
Qaranquşlar oxuyanda,
Məhəbbətim dilə gəlir,
O an ömür gözəlləşir.

***

Dünya bir yuvadır, sakini insan.
Sakini insan olan dünya yalan.

***

Eşqinə aldanıb, bir sevda dediyim gözəl
Afət olub məni necə yandırdı, amandır.

***

İndi bizim dərs zamanı,
Fikrim yenə səninlədir.
Əldə silah, sən - yarımın
Dərdi yenə mənimlədir.

***06.09.2008_Qusar***
***(DUX, 297 gün)***

***

Səsindəki o gözəllik, incəlik
Qəlbimi qəlbinə o an bağladı.

***

Alagözlüm, yazma daşlara mən səni sevirəm,
Ürəklə yazdığını ürəksizlər poza bilər.

***

Ürəyimdə var arzular,
Arzu bağım tükənməzdir.
Bağımda var qızılgüllər,
Onlar sənə bəs etməzdir.

***

Sevirəm yağışın damcılarını,
Damcıdan yaranan sədalarını.

***

Sən gəldiyin yollar yaman dumandır,
Axtarışım fayda vermir, amandır.
Haralarda soraqlayım mən səni?
Səni məndən ayrı salan zamandır.

***04.04.2009_Qusar***
***(DMB, 87 gün)***

***

Eşq bir bəladır ki, çəkirik bizlər,
Eşq bir bəladır ki, sızlayır qəlblər.
Yolunda can verir hər sevən aşiq,
Hətta qəm şairlə, saz çalan aşıq.

Şair öz dərdini yazır qələmlə,
Kağıza köçürür dərdi sözlərlə.
İlhamı isə ona dəstək verir.
Sonda da onu xalqına sevdirir.

***

## MƏKTUB

***Sevgi (oğlan):*** Bu dərsdən sonra dərsə girəcəksən?
Hə-yoxunu de, cavab yaz!
***Dost (qız):*** A bala, ürəyin üzülsün, nə olub? Nə hadisə baş verib? Bilmirəm hələ.
***Sevgi (oğlan):*** Dərsə girmə, mən də girmirəm, səninlə təkbətək ikimizə aid söhbətim var.
***Dost (qız):*** Çalışaram. Amma dəqiq bilmirəm.
***Sevgi (oğlan):*** Çalış!

***

## TƏBRİK

Hər zaman səsini eşidib, üzünü gördüyüm qəlbimin şahzadəsi, həyat kitabımın ön səhifəsinin müəllifi, Tanrının gözəl bəndəsi, kədərimi özü ilə bölüşən, sevincimi özü ilə paylaşan, şıltaqlığı, nazı ilə sevilən, dostluqda vəfalı, sevgidə sadiq olan və hal-hazırda isə iyirmi üç günlük ayrılıqmı, küsülülükmü sandığım bir boşluğun əlindən nə səsini eşidib, nə də ki, üzünü gördüyüm Könül, səni qarşıdan gələn ad günün münasibəti ilə ürəkdən təbrik edirəm.

Bəlkə də sən məndən bu təbriki gözləmirdin, bəlkə də nə bilim...

Bəlkə də sən düşünürdün ki, mən səni artıq unutmuşam, yaddaşımdan silmişəm və daha nələr, nələr... Amma yox! Bu, belə ola bilməz. Çünki mən yaxşı insanı və onun mənə olan yaxşılığını itirən insan de-

yiləm. Elələrinə də həyatda nifrət edirəm. Nə isə... Sonda sənə yazdığım "Telefon zəngi" hekayəsindən olan bu misralarla təbrikimi bitirirəm.

"Hər axşam işimdən evə yorğun gələndə bir anlıq qulağıma bir zəng səsi gəlir. Bu səs telefon zəngidir. Özümü itirərək tez telefona tərəf qaçıb dəstəyi götürəndə yenə də yanıldığımı anlayıram. Əlimdən dəstək düşür, dizlərim qapanır, gözlərim yaşarır, ürək çırpıntılarım çoxalır. Yenə də telefonun yaddaşına təkrar səninlə danışdığım axırıncı günün son tarixinə baxıram - 27.11.2006, saat 23:19..."

***

Sən də bir ayrı qrupun tələbəsi,
Mən də bir ayrı qrupun tələbəsi,
Nə sən məni tanıyırdın,
Nə də ki, mən.
Nə mən səni tanıyırdım,
Nə də ki, sən.
Hər kəsin öz həyatı, öz dərdləri...
Hər kəsin öz sevgisi, öz hissləri...

***

Kor olsun bu gözlər ki, səni görüb, sevib.

***

Bu həyat yalandır, sən də yalançı...

***15.09.2008_Qusar***
***(DUX, 288 gün)***

***

Sən coşqun dənizsən, mən tənha sahil,
Dalğan ilə məni üşüdəcəksən.
Mən qısa bir ayam, sən uzun bir il,
Gedişinlə məni kövrəldəcəksən.

***

Qulaq eşidəndə səsini bir an,
Titrədi ürəyim sənin səsindən.

***

Var olsun o şəxsə qəlblərdə yaşar.
Həyat hasarından tezbazar aşar.

***

Mən bir bülbül,
Qəfəsim də, nəfəsim də,
Xoş avazlı səsim də sən.

***

Bir gözələ düşüb meylim,
Ona yar deyim, deməyim?

***

Sev ki, ürəyin sevməyi hərdən bacarsın.

***

Gözəlim, ətirlisən ətrin məni bihuş edib.

***

Yazdım sənə məktubu əsgərlikdə,
Dedim, gülüm, darıxma qayıdacam.
Yaza-yaza ağladım hey təklikdə,
Bəzən də həyatı çox qınayacam.

***24.11.2008_Qusar***
***(MOLODOY, 218 gün)***

***

Dərd nədir bilməsin sevən ürəyin,
Hər zaman uğurlar yaxının olsun.
Mənalı sözlərin, zümrüd gözlərin,
Qapında elçilər axını olsun.

***

Darıxıram tənhalıq havasında,
Darıxıram dörd divar arasında.

***

Oyan, ey təbiət, nə yatmısan sən?
Bəlkə yatan təbiət yox insandır?
O, bəzən tənhalığa qapanandır.
O, bəzən təbiətlə canlanandır.

***

Sevgilim, ayrılıq qəlbləri üzər,
Sonra da kənardan fəxr ilə süzər.

***04.04.2009_Qusar***
***(DMB, 87 gün)***

***

Adını dilimdə səsləndirən an
Qara bulud başım üstə ağlayır.

***

Üzüm gülür, içim yanır,
Nə bilirsən dərdimi, yar.

***

Gəl yazaq biz gözəllik dünyasından,
Bu dünyada gör nə qədər sirlər var.

***

Sənin göy gözlərin başqa bir aləm,
Orda mücərrəd bir dünya görünür.
Sağ gözündə sevinc, sol gözündə qəm,
Hərdən xumar-xumar nazla süzülür.

***

Qəlbim sev desə də, dilim yox deyir,
Beynimdə fikirlər, dərd məni yeyir.

***

Küsüb səndən sevən könlüm,
Sevgini bir də istəmir.

***

Gözlərim yas tutub hər gün ağlayır,
Sənin yoxluğunu hiss edən gündən.

***

Sənin yenə xəyalınla
Gəzirəm mən yana-yana.
Yerişinlə, həm nazınla
Əzab verirsən bu cana.

***31.01.2009_S.H.H 004***
***(ZDMB, 150 gün)***

***

Eşqin badəsindən şərab istədim,
Bir qurtum şərabı mənə qıymadın,
Səndən mənə gələn bir təb istədim,
Ləbimdən[1] qəlbimə keçib uymadın.

---

**[1] Ləb - dodaq.**

***

Qəmli pəncərə,
Qarşımda bir parça kağız,
Baxıb küçəyə,
Fikrimdə o zavallı qız,
Sevgi yolunda
Canını vermişdi fəda,
Yolun sonunda
Sevgidən görmədi səfa.

***

Naz ilə nazlanan nazlı dilbərim,
Naz ilə canımı üzmüsən mənim.

***

Mənim sənlə keçən ən xoş günlərim
Sevgilə başlayıb, nifrətlə bitdi.
Ömrümdə iz qoyan sənli illərim
Sevinclə başlayıb, kədərlə bitdi.

***

Gülərüzlüm, gəlişinə möhtacam,
Tez gəl, tez gəl, yollar səni soraqlar.
Sən şahzadə, mən də sənə bir tacam,
Qəlb evimdə sənsiz yanmır çıraqlar.

***06.03.2009_S.H.H 004***
***(ZDMB, 116 gün)***

***

Sənsiz gecə, aylı gecə,
Paylaşıram bircə-bircə
Ötüb keçən günlərimi,
Yaddaqalan illərimi.

***

Bir gecə həmdəmim qələm, kağızı,
Bir də xəyalımda olan o qızı
Dəniz sahilinə apardım o gün,
Beləcə həmin günüm keçdi üzgün.
Birinci söhbətə başladı qələm,
Dedi: - şairin ilhamına qulam.
Çünki şairin ilhamı coşanda,
Tez məni axtarır o, hər bir yan da.
Sözlərə dözməyib bir parça kağız,
Qələmə şər atıb, dedi: - "vəfasız!"
Nə tez unutdun yaxın həmdəmini!
Əks etdirməyəcəm sənin dərdini!

***

Ey cananım,
Səndən necə can alım?

***

Səni sevən bu könül əsirindir.

***

Yanağını islatmış göz yaşıyam,
Gözlərim kor olsun, ağlamazdım kaş.
Səni pis görəndə niyə yaxşıyam?
Səni yaxşı görüb, pis olmazdım kaş.

***

Yarın gül ətrinin qoxusuyam mən,
Yarın eşqdən yatmış yuxusuyam mən.

***

Bəzən sevir insan ilk baxışlardan,
Hərdən baxışlar da aldadır onu.

*04.04.2009_Qusar*
*(DMB, 87 gün)*

***

Aynada əksim,
Tabloda rəsmim,
Qəmim, kədərim,
Hər dərdi-sərim...

***

O gün yenə xəyalımda göründün,
Yorğun, süzgün baxışla məni süzdün.

***

Bir dağ olub əyilmədim heç zaman!
Dağlar, məni əyilməyə qoymayın.

***

Adının yarısı Gün, yarısı Ay,
Özün şahzadəsən, həyatın saray.

***

Allah verən ömürdən çoxu bezib,
Çoxusu dərddən özünə qəsd edib.
Bu cür əməl günah Yaradan deyib.
Neyləsin bəndə, həyatdan iyrənib.

***

Yaranmısan, ey bəndə, yaxşılıq et!
Öləndə o dünyaya xoş üzlə get.

***

Şair, yenə qəlbinə qəm düşübdür...

***

Körpə uşaq bələyində dərd çəkir,
Öləndə də kəfənində dincəlir.

***

Bu dünyada çətin izimiz qala,
Çünki biz dustağıq, həyat bir qala.

***

Bilirəm, xətrinə dəymişəm, gülüm,
Dilim acı olub, söymüşəm, gülüm,
Əsəbi olmuşam, döymüşəm, gülüm,
Gəl bağışla məni, bağışla məni,
Bu qəlbim heç zaman incitməz səni.

***

Ayrılıq sözünü gətirmə dilə,
Onsuz da qəlbdə dərdlər yuva salıb.

***

Bu gün yenə bəzənmisən, gözəlsən,
Gözəlliyinlə canımı üzürsən.
Bu gözləri yormusan sən nazınla,
Nazınla, yerişinlə, avazınla.
Hər an sevdirirsən mənə özünü,
Kirpiklər bəzəyir gözəl hüsnünü[1].
Eşq avazınla sevdamı almısan,
Bülbültək məni qəfəsə salmısan.

---
[1] **Hüsn - sima.**

***

Əsib yarpaqtək qarşımda tökürsən
Göz yaşı bu qədər məhəbbətlə sən.
Vaxtilə vurmusan qəlbə gözdağı,
İndi danışırsan hansı üzlə sən.

***

Ay dolanıb, il dolanıb keçəcək,
Yar saf sevgimin qədrini biləcək.

***

Bu gün eşq evimə qonaq gəlmisən,
Əliboş gəlsən də, heç eybi yoxdur.
Ürəyində sevgini gətirmisən,
Amma hədiyyələrdən fərqi çoxdur.

***

Ürəyimdə gizli yatan sevgim var,
Çalışsam da, baxışımdan anlanmır.
Qəlbimi göynədən neçə sirrim var,
Çalışsam da, bu dil onu anlatmır.

***

Ürək darıxanda, gözəlim, sənsiz
Həsrətlə sinəmə çırpır özünü.
Körpə uşaq kimi hərdən kimsəsiz,
Gecə-gündüz ağladır kor gözümü.

***

Sən soldun bağçamda bir qızılgültək,
Solsan da, bağçamda bir izin qaldı.
Zəhərli tikanın qanatdı ürək,
Qəlbimdə əbədi bir közün qaldı.

***

Ayrılanda göz yaşımsan,
Qayıtmağa gümanımsan.

***

Dözmədim verdiyin son əzablara,
Torpağın əbədi sakini oldum.
İstəyim budur, gəlmə məzarıma,
Demə, göz yaşı töküb, saçım yoldum.

***

Bəzən ürəyimin ağrısı tutur,
Sancır arı kimi sinəmi ürək.

***

Sevgim də gözümtək ağlayır hərdən,
Ağlaya-ağlaya göynədir məni.

***

Aynada gözlərim gözümə baxıb
Min sualla beynimi yaman yorur.

***

Dözməyib nazına qələm
Yenə səni yada saldı.

***

Ayrıldın səbəbsiz, ayrıldın məndən,
Gedişinlə gəlişinə yox inam.
Bezdim sənsiz tənhalıqdan, təklikdən,
Çətin əvvəlkitək alışam, yanam.

***

Dalaşıb küsürsən, bu, adi haldır.
Bəzən zəhər dilin mənimçün baldır.

***

Həzin külək əsir bu axşam gizli,
Kövrəldir qəlbimi küləyin səsi.
Qəlbimə qonaqsan, əsmərbənizli,
Bir də sənə yazılan eşq nəğməsi.

***

Yalvarıram gözümdən itmə bir an,
Yoxsa gözlərimin nuru çəkilər.
Sənin nəfəsinlə yaşayan bu can,
Sənin nəfəsinlə də ölə bilər.

***

Ölüb bu dünyadan köçsəm də, inan,
Səni bu qəlbimdə yaşadacağam!

***

Dərddən yanır, göz yaşı dərddən axır,
Tənhalıq boğur onu, hey ağlayır,
Dərdini qəmli qəlbində saxlayır,
Dərdi nədir, bilinməyir, yanır şam.

***

Əlimi əlinlə sıxdığın gecə,
Ehtirasla baxıb öpdün gizlicə.
Ürək unudarmı bunları səncə?
Niyə yoxluğunla üzürsən məni?

***

Adınla bağlıdır hər günüm, ilim,
İllər uzun oldu, gəl, çıx, ey gülüm.

***

Gündüz Günəşimsən, gecə Ayımsan,
Darıxıb tək qalsam, son harayımsan,
Taxtım, tacım, eşq evim, sarayımsan,
Nə olar bir dəfə mənə yaxın ol,
Demirəm eşqimdən xəstə, dəli ol.

***

Dalğalar almışdır yardan sonanı,
Yarın fəryadı bürümüş cahanı...

***

Qoy, yox olsun məndən ümidsiz xəyal!
Bəzən xəyallar da vəfasız olur.

***

Körpətək etdiyin hər bir əməlin
Körpəlikdə şıltaq olduğun deyir.

***

Həbibi gözəl uğrunda verdi can,
Tikanlı, qanqallı, yolda tökdü qan.

***

Çox yaşamaq əsas deyil,
Yaşa, kişitək əlli il!

***

Niyə birdən-birə yadına düşdüm?
Bəs demişdin səni unutmuşam mən.

***

Gözlərin bu axşamtək zil qaradır,
Qorxuram ki, bəxtin də elə ola.

***

Bir dərd idin, yenə canıma düşdün.

***

Sən məni qoymadın yatam bu axşam,
Röyada nəbzimi boğmaq istədin.
Ağladıb dərdimə yandırdım bir şam,
Dedim unudaram, yatmaq istədim.

***

Deyirlər unudulmaz olur bəzən,
İlk görüşün ilk yaddaqalan anı.
Deyirlər, gözlərdə yaş dolur bəzən,
Əğyar yardan alan zaman cananı.

***

Yağ ey yağış, ruhumu sən təzələ,
Şeir yazım sevdiyim o gözələ.

***31.10.2008_Qusar***
***(MOLODOY, 242 gün)***

***

Külək nazı ilə oynayan zülfün[1],
Naz etdikcə, qələmim ilham alır.

[1] **Zülf - tel.**

***

Ala gözlər,
Kimi gözlər?
Gah süzülər,
Gah üzülər.

***

Nə olar, Allahım, alma əlimdən,
Qazandığım xoşbəxtlik zirvəsini.
Duaların heç vaxt düşməz dilimdən,
Mən bəndədən alma eşq həvəsini.

***

Nitq qurudu, göz yaşardı, əl əsdi,
Deyilən söz xəncərtək məni kəsdi.

***

Həbibi, qəm yemə qoca dünyada,
Onsuz da ömrümüz üç-beş günlükdür.

***

Allah, bu qız hər küsəndə
Ürək parça-parça olur.
Küsüb canımı üzəndə
Gözlər göz yaşıyla dolur.

***

Hərdən qanad açıb uçsam göylərə,
Hərdən də göylərdən enmək istərəm.
Hərdən qayıtsam da ötən illərə,
Hərdən o illərdən küsmək istərəm.

***

Sev məni, qısqan dağlara-daşlara,
Mənim üçün ağlayan göz yaşlara.

***

Könül, könüllər şahıdır gözlərin.
Sənin gözlərində yaranıb cahan!

***

Sənlə dost kimi olsa da bu ürək,
Oğrun-oğrun sevir səni bu gözlər.

***

Gözüm qaldı gözlərində, gözəl yar
Gözlərim gözlərdə səni, gəzər yar.

***

Qoca dünya, qocalmışam,
Daha qalmayıb taqətim.
Dövran keçib, mənim deyil
O sazlı-sözlü söhbətim.

***

Fələk kələk gəlib ayırdi sizi,
Allah, al canımı, qovuşdur bizi.

***

Çox olsa da, yaşım mənim,
Nələr çəkmiş başım mənim...

***

Saqi[1], süz şərabı, qoy bihuş olum yar xətrinə.

---

[1] **Saqi - şərab süzən.**

***

Mən sevirəm gözəlləri,
Gözəl gözlü gözəlləri.

***

Yol üstəyəm, səfərim çox uzaqdır,
Darıxıram, dost yanımda dayaqdır.
Toy olacaq dost evində inşallah,
Bu xoş gündə oynayan qol-ayaqdır.

***

Qoy dağılsın nur üzünə
Dəniz dalğalı saçların.

***

Mən səni unutmaq istəsəm də bil,
Nədənsə bu ürək unutmur səni.
Qorxuram gözlərim axtara yenə,
Ümid verib sonda mən sevməyəni.

***

Qəbrim üstə gəlməsən də,
Göz yaşını tökməsən də,
Məni yenə sevməsən də,
Bil unutmaz ürək səni.

***

Güllər kimi qəşəng, təravətlisən,
Dostluqda hər zaman səxavətlisən.
Özün nazlı mələk, arzu-diləksən,
Sən sinəmdə çırpınan tək ürəksən.

***

Bir gün tikan oldun batdın əllərə.
Bir gün yalan oldun düşdün dillərə.

***

Bir zaman əhdini mənlə bağlayan,
Göndər elçiləri deyib, aldadan.

***

Gözəlsən, gözümdə gözəl göz kimi,
Gözəlsən, sözümdə gözəl söz kimi,
Gözəlsən, üzümdə gözəl üz kimi,
Belə gözəllikdən necə əl çəkim?

***

Yaz yağışı yağan kimi
Niyə mənə naz edirsən?
Bəzən də yad baxan kimi
Yenə mənə naz edirsən.

***

Yağış yağır buludların gözündən,
Bu dünyanı öz nuruna cəlb edir.
Günəş də şəfəq saçır göy üzündən,
Sonda o da vaxtı çatanda gedir.

***

Deyirsən elçi gəl bizə,
Gəlin köçüm sonra sizə,
Başa vuraq ömrü yüzə,
Xoş sözləri düzə-düzə.

# MÜNDƏRİCAT

Həyat və yaradıcılığı....................................3
Ön söz....................................9

## ŞEİRLƏR

O qızı unutmaram mən....................................15
Xoşbəxt olsun bu iki gənc....................................16
Sən dünyaya yaraşırsan....................................17
Xəyalımdan keçən gözəl....................................18
Xəstəyəm, dərmanım yardır....................................19
Qəmli məhəbbət....................................20
Ey yar....................................21
Bu həyatdan cavan köçdün, sevgilim....................................22
Şair....................................23
Kitabi-mehrim....................................24
Əziz dost....................................26
Süsanə....................................27
Səni axtarıram, yar, haradasan?....................................28
Müxəmməs....................................29
İnsan....................................30
Ay və Ulduzun toyu....................................31
Müxəmməs....................................33
Biz ad günümüzü bir qeyd edirik....................................34
İsmi-Teymur....................................36
Ola bilsəydim....................................37
Xatirəli bir gecə....................................39

Göy Xəzərdə çimən gözəl....................................................................42
Namə........................................................................................44
Həsrət - Ayrılıq..........................................................................45
Könül qəfəsimdə döyünür ürək....................................................46
Şair Həbibini yoldan edən vaxt....................................................47
Qəlbimin sakini sənsən................................................................48
Bir aləmsən gözəllikdə................................................................49
Könül verib, dərd qazandım........................................................50
Nə gözəldir bu qız, Allah!............................................................51
Hər görəndə..................................................................................52
Bəzən olur....................................................................................53
Gözü yolda qalan ana...................................................................54
Elə bil...........................................................................................55
Gözəl.............................................................................................56
Bir salamdır aramızdakı söhbət....................................................57
Doya bilmir bu qəlb səntək gözəldən...........................................59
Namə.............................................................................................60
Qulluğunda hər an durum.............................................................61
Adı Çiçək, özü göyçək..................................................................62
Könül, könüllərdə yerin var hər an...............................................63
Yalandır.........................................................................................65
Ürəkdən inanıb..............................................................................66
Barışmağa can atsam da, barışmır................................................67
Yaşadığım bu həyat.......................................................................68
Darıxmışam..................................................................................70
Sənin sevgin ucbatından...............................................................71
Nişanlı qız.....................................................................................72

Ana.....................................................................................................73
Xəstəyəm, bu ürək darıxır sənsiz.........................................................74
Ana.....................................................................................................76
Yoxsa incimisən həmənki kimi?............................................................77
Küsəyən qız..........................................................................................78
Yenə yadıma düşdün sən.......................................................................79
Ayrılıq.................................................................................................80
Əsgər məktubu......................................................................................81
Şahdağ.................................................................................................82
Şeir yazmaq istəyirəm...........................................................................83
Gülüşlərin.............................................................................................85
Gül fidanı.............................................................................................86
Sən mənim üçün....................................................................................87
Gözəlsən sən.........................................................................................88
Gözlərində sevgi vardı...........................................................................89
İçimdə bir qorxu var, yar qorxusu..........................................................90
Külək...................................................................................................91
Mənim qəbir daşım...............................................................................92
Mən niyə sevə bilmirəm?.......................................................................94
Gözlədik yolunu....................................................................................95
Vuruldum.............................................................................................96
Bulaq...................................................................................................97

## TARİXSİZ ŞEİRLƏR

Hər birisi...........................................................................................101
Kövrəldir.............................................................................................102
Havam da sən, qidam da sən.................................................................103

Dar günümdə dayağımsan....................................................................104
Naz elə.........................................................................................105
Məhəbbət......................................................................................106
Xəyallar........................................................................................107
İtirdim qızı....................................................................................108
Əlvida, həmdəmim olan dostlarım..................................................109
Şükür sənə....................................................................................110
Telefon zəngi................................................................................111
Görüş yeri.....................................................................................112
İş otağım.......................................................................................113
Düz üç aydır..................................................................................114
Bircə sən yoxsan, əzizim..............................................................115
Olsam............................................................................................116
Təbiət bağçası................................................................................118
Pak adındır məni yaşadan, ana!......................................................119
Qız qaçırtmaq................................................................................120
Rəhmətlik İsmayıl əmim................................................................122
Şair təbiətli....................................................................................124

## BAYATILAR

Bayatılar.......................................................................................127

## NATAMAM SƏTİRLƏR...

Natamam sətirlər...........................................................................131

*Teymur HƏBİBİ*

# HƏBÎBÎ DÜNYASI...

Bakı, "MTR group" nəşriyyatı - 2010, 160 səh.
**mtr_group@mail.ru**

---

**Elektron mətbuat dəstəyi**

**ELEKTRON VİDEO-FOTO İNFORMASİYA AGENTLİYİ**
**WWW.AZPRESS.AZ**
**azpress.az@mail.ru**
***Agentliyin rəhbəri:* Rasim SADIXOV**

***Nəşriyyat direktoru:* Xaqani ƏHMƏDOV**
***Dizayner:* Ramiz ƏBİLOV**
***Korrektorlar:* Sevda SƏLİMOVA**
**Ləman HACIYEVA**
***Rəssam:* Elnur KƏRİMOV**

---

Yığılmağa verilmişdir: 06.09.2010
Çapa imzalanmışdır: 11.10.2010
Kağız formatı: 60x84 1/16
Fiziki çap vərəqi: 10
Tiraj: 500

group mtr
NƏŞRİYYAT VƏ POLİQRAFİYA İŞLƏRİ

**Tel: +99455 218 81 99**
**+99455 707 70 10**